## İdmançılarımız İrəvana getdi



İrəvanda keçiriləcək ağır atletika üzrə Avropa çempionatında iştirak edəcək Azərbaycan idmançıları artıq Ermənistan paytaxtındadır.

Bakupost.az xəbər verir ki, bu barədə "Sputnik Armenia" məlumat yayıb.

Bildirilib ki, Azərbaycan nümayəndə heyətini Zvartnots hava limanında xüsusi polis dəstələri qarşılayıb.



## Avropa İttifaqı "Vaqner"i "qara siyahı"ya saldı

**Avropa İttifaqı (Aİ) Rusiyadan olan fiziki və hüquqi şəxslərdən ibarət "qara siyahı"nı genişləndirib.**

APA xəbər verir ki, bu barədə Aİ-nin rəsmi jurnalında bildirilib. Siyahıya "Vaqner" özəl hərbi kompaniyası və Rusiya Beynəlxalq İnformasiya Agentliyi "Federal Xəbərlər Agentliyi" (RİA FAN) da daxil edilib.


№ 64 (5825) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 14 aprel 2023-cü il (cümə)




# Bakı çox çirklənib

### Havada dəm qazı normadan 1.7 dəfə çoxdur

**Atmosfer havasının keyfiyyətinin monitorinqi gündəlik olaraq Bakı şəhərinin Səbail, Xətai, Nizami, Nərimanov rayonları və Sumqayıt, Gəncə şəhərləri ərazisində hava keyfiyyəti üzrə fasiləsiz fəaliyyət göstərən avtomatik stansiyalar vasitəsilə həyata keçirilir.**

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, stansiyalardan əldə edilən məlumatların təhlilinə əsasən, gün ərzində Bakı şəhəri üzrə hava keyfiyyət göstəricilərindən dəm qazının miqdarı normadan 1.7, azot-4 oksidin miqdarı Gəncə şəhərində 1.3, Sumqayıt şəhərində 1.1 dəfə yüksək müəyyən edilib. Dəm qazı və azot-4 oksidin miqdarının normadan yüksək olmasına səbəb nəqliyyatın hərəkətinin intensiv xarakter daşıması və digər antropogen təsirlərlə əlaqədardır.



## Liderlər vahid mövqeyə gəldilər

### Azərbaycan-Bosniya və Herseqovina münasibətlərinin yeni səhifəsi başlayır

**Aprelin 13-də Azərbaycan Prezidenti İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfər edib. Prezident İlham Əliyev Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri xanım Jelka Tsviyanoviçlə görüş keçirib.**

Görüşlərdən sonra Azərbaycanla Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Sonra Prezident İlham Əliyev və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç mətbuata bəyanatlarla çıxış ediblər.

(səh.2)

## Azərbaycan və ABŞ arasında ikitərəfli müdafiə məsələləri müzakirə olunub



**Amerika Birləşmiş Ştatlarında səfərdə olan müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ABŞ Milli Qvardiya Bürosunun rəis müavini general-leytenant Mark Sasservil ilə görüşüb.**

Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Xəzər İbrahimin də iştirak etdiyi görüşdə "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində hərbi əməkdaşlığın cari vəziyyəti, gələcəkdə bu istiqamətdə görülən işlərin daha da inkişaf etdirilməsi, hərbi pilotların hazırlığı, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Ermənilər əsgərlərimizə işgəncələr verdi

### Azərbaycan XİN beynəlxalq təşkilatları Ermənistanın əsirlərə qarşı zorakılığına lazımi qiymət verməyə çağırıb





**İki nəfər hərbçimiz - Aqşin Bəbirov və Hüseyn Axundov Naxçıvanın Şahbuz rayonunun Ermənisanla sərhədində əlverişsiz hava şəratində azaraq itkin düşmüşdü. Bundan sonra əsgərlərimizin Ermənistan ərazisində saxlanıldığının ehtimal edildiyi nəzərə alınaraq, onların azad olunmaları ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara rəsmi müraciət olunmuşdu. Ermənistan tərəfində aprelin 10-da bir nəfər azərbaycanlı əsgərin saxlandığına dair məlumatlar, videogörüntülər yayılmışdı.**

Daha sonra Ermənistan Müdafiə Nazirliyi Zəngəzur (Sünik) mahalının Bnunis kəndində bir azərbaycanlı əsgərin saxlanıldığını, digərinin isə qaçdığını bildirmişdi. Dünən Ermənistan ərazisində itkin düşən ikinci azərbaycanlı əsgərin də saxlandığı barədə məlumat verilib.

Məlumatdan az sonra bununla bağlı Ermənistan internet resurslarında videolar yayılıb. Yayılan videolarda əsgərin işgəncəyə məruz qaldığı, döyüldüyü aydın olub. Ermənistan tərəfi manipulyasiyaya əl ataraq iddia edib ki, guya, Zəngəzurdakı mis-molibden mədəninin ötən gün öldürülən mühafizəçisinin mobil telefonu əsgərimizin cibindən çıxıb.

(səh.3)

# Çörək bahalaşa bilər

### Rusiyaya təzyiqlər artdıqca "Taxıl sazişi"ndən qaçacaq



**"Əgər problemlərin həllində irəliləyiş olmasa, mayın 18-dən etibarən "Taxıl sazişi" uzadılmayacaq". Bu barədə Rusiya Xarici İşlər Nazirliyindən bildirilib. Vurğulanıb ki, "Taxıl sazişi" əvvəlki kimi, Qərb ölkələrinin maraqlarına uyğun olaraq, rəsmi Kiyevin yalnız kommersiya maraqlarına xidmət edir:**

"Əgər belə davam edərsə, müqavilənin uzadılması barədə danışmağa ehtiyac qalmayacaq". Kremlin sözçüsü Dmitri Peskov daha əvvəl müqavilənin müddətinin növbəti dəfə uzadılması perspektivinin az olduğunu bildirmişdi. Xatırladaq ki, ötən il iyulun 22-də İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və BMT-nin Baş katibi Antoniu Quterreşin iştirakı ilə Ukrayna limanlarından taxılın təhlükəsiz daşınmasına dair saziş imzalanıb.

(səh.4)



## Türkiyə Prezidenti xalqa səslənib

### Ölkənin taleyi ilə oynayanlara "dur" deməyinizi gözləyirəm

**Ortada örnək göstəriləcək tək bir əsərləri olmayanlar zəlzələdən əziyyət çəkən əhalimizin sıxıntılarını çözə bilərmi? Əlbəttə ki, yox!**

APA xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Belə bir komandaya nəinki Türkiyə, adicə bir baqqal dükanı belə əmanət edilə bilməz", - o, əlavə edib.

Ərdoğan xalqı səsvermələrdə fəal olmağa səsləyib: "Sizlərdən ölkənin taleyi ilə oynayanlara "dur" deməyinizi gözləyirəm. Sizlərdən Türkiyənin gələcəyi üçün sandığa getməyinizi istəyirəm".

## Güclü külək Göyçayda ağacları aşırıb, evlərə ziyan dəyib



**Güclü külək Göyçay rayonunda da fəsadlar törədib.**

APA-nın Şirvan bürosu xəbər verir ki, bu gün əsən güclü külək nəticəsində rayon ərazisində bir neçə ağac kökündən qoparaq dam örtüyü və yol kənarında piyada keçidlərinə ciddi ziyan vurub.

Külək nəticəsində aşan ağaclardan biri əczaxananın dam örtüyünü yararsız hala salıb. Hazırda ərazidə təmizləmə işləri aparılır. Rayonda elektrik enerjisinin verilməsində də fasilələr yaranıb.

## Bakıda gözəllik salonunda kişi arvadını qətlə yetirib



**Bakıda qətl törədilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Şərq"-ə verilən xəbərə görə, bu gün saat 12:40 radələrində paytaxtın Binəqədi rayonu Rəsulzadə qəsəbəsində gözəllik salonlarından birində 1986-cı il təvəllüdlü Aygün Qərib qızı Yusifovanın kəsici-deşici alətlə qətlə yetirilməsi barədə polisə məlumat daxil olub.

Cinayət əməlini şəxsi münasibətlər zəminində törətməkdə şübhəli bilinən qadının həyat yoldaşı, 1980-ci il təvəllüdlü İsrafil Dursun oğlu Yusifov polisə gələrək təslim olub. Araşdırma aparılır.



## "Mən İranı Azərbaycan üçün daha təhlükəli dövlət sayıram, nəinki Rusiyanı"

Eldar Sabiroğlu: "İranın bu gün Azərbaycana yerləşdirdiyi əks-kəşfiyyatı daha güclü və daha qorxuludur"

(səh.5)



## Paşinyan imperialist maraqların qurbanıdır

Bəlkə Ermənistanı rahat və təkbaşına buraxsalar, sülh masasına əyləşər

(səh.3)

# Liderlər vahid mövqeyə gəldilər

## Azərbaycan-Bosniya və Herseqovina münasibətlərinin yeni səhifəsi başlayır



**Aprelin 13-də Azərbaycan Prezidenti İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfər edib. Prezident İlham Əliyev Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri xanım Jelka Tsviyanoviçlə görüş keçirib.**

Görüşlərdən sonra Azərbaycanla Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Sonra Prezident İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç mətbuata bəyanatlarla çıxış ediblər.

### "İşğal dövründə Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi"

**Dövlət başçısı bildirib ki, Bosniya və Herseqovina-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlinib. Əlaqələrimizin tarixinin də çox gözəl olduğunu vurğulayan dövlət başçısı bildirib:** ”Xüsusilə siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr bizim münasibətlərimizi yüksək səviyyəyə qaldırıb. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi bütün məsələlərdə dəstəkləmişik və bu dəstək bu gün də hiss olunur”.

Ölkə rəhbəri qeyd edib ki, bizim münasibətlərimizin yeni səhifəsi başlayır: ”Rəsmi səfər çərçivəsində aparılan danışıqlar yeni imkanlar açır. O cümlədən bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir. Müntəzəm olaraq siyasi və diplomatik müstəvidə məsləhətləşmələrin aparılacağını vurğulayan Azərbaycan Prezidenti qeyd edib ki, eyni zamanda iqtisadi sahədə işlər daha məqsədyönlü şəkildə aparılacaq. ”Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edilib. Bu gün aparılan danışıqlar əsnasında, eyni zamanda konkret layihələr üzrə işçi qrupunun yaradılması da razılaşdırılıb və qısa müddət ərzində bu istiqamətdə addımlar atılacaq”.

### "Strateji tərəfdaşlıq əlaqələri hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur"

**Azərbaycan Prezidenti bildirib ki, strateji tərəfdaşlıq əlaqələri hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur:** ”Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan sözün əsl mənasında strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək. Bu gün geniş fikir mübadiləsi əsnasında biz Bosniya və Hersoqovina-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlmişik. Bu əlaqələr bundan sonra yüksələn xətlə inkişaf edəcək”.

### "Azərbaycan da Bosniya və Herseqovinanın ərazi bütövlüyünü dəstəkləyib"

**Prezident diqqətə çatdırıb ki, Azərbaycan da Bosniya və Herseqovinanın ərazi bütövlüyünü dəstəkləyib:** ”Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm: iki il yarım bundan əvvəl Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəndə - İkinci Qarabağ müharibəsi zamanı Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanı dəstəkləyib. Bizim haqq işimizi dəstəkləyib. Bu, dostluq və qardaşlıq mövqeyidir. Buna görə biz sizə minnətdarıq. Azərbaycan da, öz növbəsində, bütün məsələlərdə, o cümlədən Bosniya və Herseqovinanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı birmənalı şəkildə, Bosniya və Herseqovinanın maraqlarını dəstəkləmişdir”.

### "Azərbaycan bizim üçün çox mühüm ölkədir"

**Bosniya və Herseqovina Rəyasət Heyətinin sədri deyib ki, Azərbaycan çox mühüm ölkədir:** ”Bu gün biz bunu bəyan edirik ki, bir-birimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda ikitərəfli münasibətlərimiz də daha yüksək səviyyəyə qalxacaqdır. Çox şadam ki, biz bu məsələdə də inkişaf görürük. Cənab Prezident, Sizi burada salamlamaq mənim üçün böyük şərəfdir. Sağ olun ki, mənim dəvətimi qəbul etdiniz. Şadam ki, bu gün biz bu fürsəti əldə etmişik. Burada da əzmimizi ifadə edirik ki, əməkdaşlığımızı davam etdirəcəyik”.

### "Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb"

**Jelka Tsviyanoviç qeyd edib ki, Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb:** ”Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb, artıq biz indi praktiki əməkdaşlığa başlayırıq. Dünən biz Azərbaycanın iqtisadiyyat naziri və nümayəndə heyəti ilə görüş keçirdik. Bizim Nazirlər Şurasında və işgüzar dairələrdə görüşlər həyata keçirildi ki, biz hansı istiqamətdə əməkdaşlığımızı davam etdirə bilərik. Biz nəqliyyat, energetika, turizm və digər sahələrdə imkanları nəzərdən keçirdik. Hesab edirəm, bu, yaxşı fürsətdir ki, biz bununla bağlı nazirliklərimizə təlimat verək ki, konkret layihələrlə bağlı siyahı hazırlansın, maraqlarımız nədən ibarətdir, sərmayə harada tələb olunur. Biz bütün bunlarla bağlı təlimatlarımızı verəcəyik” .

### "Azərbaycanda səfirliyin açılması üçün XİN-ə təlimat vermişik"

**Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri xanım Jelka Tsviyanoviç deyib ki, imzalanan Bəyannamə ilə iki ölkə strateji tərəfdaşa çevrilir:** ”Bu Bəyannamə bizə imkan verəcək ki, daha sıx siyasi dialoq həyata keçirək, eyni zamanda daha səmərəli iqtisadi əməkdaşlıq edək”. O bildirib ki, bunun sayəsində biz - işgüzar dairələr, dövlət qurumları həm iqtisadi mənfəət görəcəyik, eyni zamanda təhlükəsizlik sahəsində də əməkdaşlıq başlanılacaq: ”Çox şadıq ki, Azərbaycan artıq Bosniya və Herseqovinada səfirliyini açıb və mən məmnuniyyətlə qeyd edə bilərəm ki, biz də ölkəmizin Bakıda səfirliyini açmaq qərarına gəlmişik. Biz bunu həyata keçirəcəyik və bu məsələ ilə bağlı da cənab Prezidentə məlumat vermək istəyirəm ki, biz hər üç üzv yekdil qərar verdik ki, Bakıda səfirliyin açılması vacibdir. Bununla bağlı təlimatlarımızı artıq Xarici İşlər Nazirliyinə vermişik və əminəm ki, səfirliyimiz açılan kimi onun bəhrəsini görəcəyik”, - xanım Jelka Tsviyanoviç vurğulayıb.

### "Ölkəmizdə hər hansı çətinlik baş verən vaxtda Azərbaycan hər zaman bizim yanımızda olub"

**Jelka Tsviyanoviç bildirib ki, ölkələrində hər hansı çətinlik baş verən vaxtda Azərbaycan hər zaman onların yanında olub:** ”Biz qərara gəldik ki, bu gün artıq əməkdaşlığımızın yeni səhifəsini açaq və daha səmərəli əməkdaşlıq etməyə başlayaq. Bu fürsətdən istifadə edərək, cənab Prezident Əliyevə və ölkənizə 2014-cü ildə bizim ölkədə baş vermiş daşqın zamanı göstərilmiş yardıma görə minnətdarlığımı bildirirəm. Bizim xalqımız böyük çətinliklərlə üzləşmişdi və Azərbaycan o zaman bizim yanımızda oldu, daha sonra koronavirus və pandemiya dövründə də Azərbaycan bizə yardım göstərdi. Bütün bu müddət ərzində Azərbaycan bizim bir neçə şəhərimizdə mühüm lazımi infrastruktur layihələri həyata keçirdi. Banya Luka şəhərində tibbi mərkəz yaradıldı, Sarayevo şəhərində dostluq parkı salındı. Eyni zamanda Sarayevoda tibb müəssisəsi təsis edildi. Ölkəmizdə hər hansı bir çətinlik baş verən vaxtda da Azərbaycan hər zaman bizim yanımızda olmuşdu”.

**İsmayıl**

**Ermənistanın baş naziri Nikol Paşinyanın 13 aprel tarixində hökumət iclasında çıxışı zamanı Laçın istiqamətində baş vermiş son təxribatda məsuliyyəti Azərbaycan tərəfinin üzərinə atması, Azərbaycanı Praqa və Soçi görüşləri çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmaqda təqsirləndirməsi tamamilə əsassızdır və qəbuledilməzdir.**



# XİN Paşinyana cavab verib

## Baş nazir 1991-ci il sərhədləri dedikdə nəyi nəzərdə tutduğuna aydınlıq gətirməlidir

*Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan baş naziri Paşinyanın 13 aprel tarixində hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialarla bağlı şərhində deyilir.*

”Avropa İttifaqının bir gün əvvəlki bəyanatına istinad edən Baş nazirin delimitasiya üçün 1991-ci il sərhəd xəttinin əsas götürülməsi ideyasını təkrarlaması bir sıra qərəzli məqamları ehtiva edir. Belə ki, Ermənistan Baş nazirinə xatırlatmaq istərdik ki, Ermənistan tərəfindən Azərbaycana qarşı başladılan işğal siyasəti nəticəsində, 1990-cı ildə Kərki və Bağanis Ayrım kəndləri Ermənistan tərəfindən işğal edilib. Bununla yanaşı, Ermənistanın Üçtərəfli bəyanata zidd olaraq, Azərbaycan ərazilərindən hələ də erməni silahlı qüvvələrinin çıxırmaması, 8 Azərbaycan kəndini işğal altında saxlaması məlumdur. Bu xüsusda, Baş nazir ilk öncə 1991-ci il sərhədləri dedikdə nə nəzərdə tutulduğu məsələsinə aydınlıq gətirməlidir.

Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddiaları davam etdirməsi və bu ərazilərdən qüvvələrini geri çəkməməsi Praqa və Soçi razılıqlarının ciddi şəkildə pozulmasının və Ermənistanın sülh prosesində maraqlı olmamasının bariz nümunəsidir.

Ermənistanın Azərbaycanda həyata keçirdiyi təxribatlara və qeyri-qanuni fəaliyyətlərə son qoymaq məqsədilə Laçın yolunun başlanğıcında sərhəd nəzarət-keçid məntəqəsinin yaradılması barədə Azərbaycanın təklifinə müsbət cavab vermək əvəzinə, Ermənistan tərəfi Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı qərarını da təhrif etməkdən çəkinmir.

Qeyd edək ki, Azərbaycan hökumətinin Laçın yolunda baş verən etirazların təşkilatçısı olduğu iddiası məhkəmə tərəfindən rədd edilib, ”yolun bağlandığı” və ”ərazinin blokadada” saxlandığı barədə iddiaların heç bir əsası yoxdur.

Ermənistan tərəfini əsassız bəyanatlar vermək əvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara geri qayıtmağı, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, Üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik”, - Ayxan Hacızadə qeyd edib.

# "Zaxarovanın açıqlamasını şərh etməyəcəm"

## Məmmədyarov: ”Sualı ”E-mail”lə Zaxarovaya göndərin ki, nə demək istədiyini sizə anlatsın”

**”Digər strukturların müdaxiləsi sabitliyin pozulmasına gətirib çıxaracaq”.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova News.ru saytının jurnalisti Sona Rüstəmovanın aprelin 11-də Ermənistan və Azərbaycan hərbçiləri arasında baş verən insidentlə bağlı sualını cavablandırarkən bildirib.

Zaxarova qeyd edib ki, atışma Qərbin müdaxiləsi nəticəsində baş verib.

”Uzun müddətdir davam edən bu məsələnin həlli ilə heç vaxt məşğul olmayan digər oyunçuların və ya strukturların oraya daxil olması nəzərdə tutulan effekti verməyəcək - sülhün əldə edilməsi təmin edilməyəcək. Bu, təəssüf ki, gərginləşməyə, sabitliyin pozulmasına gətirib çıxaracaq”, - deyə Zaxarova vurğulayıb.



**”Şərq” olaraq məsələ ilə bağlı şərh almaq üçün sabiq xarici işlər naziri Elmar Məmmədyarovla əlaqə saxladıq.**

**Məmmədyarov Zaxarovanın açıqlamasına fikir bildirməkdən imtina etdi:** ”Düzünü deyim, yaxşı sualdır. Amma təklif edirəm ki, sualı ”Şərq” qəzeti adından Zaxarovaya göndərin. Zaxarovaya deyib, gərək özü də cavab versin. Zaxarovanın açıqlamasını şərh etməyəcəm. Sualı ”E-mail”lə Zaxarovaya göndərin ki, nə demək istədiyini sizə anlatsın”.

**Nihat Müzəffər**

# Vacib qərara imza atıldı

## Azərbaycan da dəniz suyundan istifadəyə başlayır

**Prezident İlham Əliyev ”Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında” sərəncam imzalayıb. Sərəncam ”Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının icrası, ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə imzalanıb. Sərəncama əsasən, Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihə həyata keçiriləcək. Sənədlə Nazirlər Kabineti və bir sıra qurumlara uyğun tapşırıqlar verilib.**

”Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu” Açıq Səhmdar Cəmiyyətinin ”Xəzər Dəniz Suyunun Duzsuzlaşdırılması Kompleksi” barədə məlumatı da maraqlıdır. Məlumatdan bəlli olur ki, dəniz suyunun içməli su səviyyəsinə qədər təmizlənməsinə imkan verən zavodumuz var və dəniz suyu duzsuzlaşdırılaraq suvarmaya, əkinə yararlı hala gətirilir. Məlumatda bildirilir ki, gələcəkdə yarana biləcək su qıtlığı probleminin effektiv həlli məqsədilə 2013-cü ildə Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən, tərs osmos membranları ilə təchiz olunmuş və yüksək texnologiyaya əsaslanan zavod inşa edilib. Zavodun tikilməsi ideyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məxsusdur və Yer kürəsində təmiz suya olan tələbatın get-gedə artması fonunda regionda ən az şirin su ehtiyatına malik olan Azərbaycanda alternativ mənbələrin üzə çıxarılması, onlardan istifadənin təşkilində təcrübə əldə etmək məqsədilə pilot layihə kimi həyata keçirilib. İlk mərhələdə zavodda dəniz suyundan sutkada 1000 m3 şirin su istehsal etmək üçün avadanlıq quraşdırılıb. Ehtiyaclar nəzərə alınaraq 2016-cı ildə zavodun gücü əlavə tikinti-quraşdırma işləri aparmadan 2 dəfə artırılaraq sutkada 2000 m3 çatdırılıb. Zavodda gələcəkdə az məsrəfli əlavə işlər görməklə alınan təmiz suyun həcminin 20 000 m3-dək çatdırılmasına imkan verəcək müvafiq infrastruktur yaradılıb. Dənizdən suyun götürülməsi üçün uzunluğu 200 metr, eni 8 metr, dəniz səviyyəsindən hündürlüyü 5 metr olan damba inşa edilib, 1 ədəd həcmi 500 m3 və 2 ədəd 200 m3 olmaqla, cəmi 3 ədəd xüsusi örtüklə izolyasiya olunmuş dəmir su çənləri, 2 ədəd həcmi 500 m3, 1 ədəd 250 m3, 2 ədəd 2000 m3 olmaqla, cəmi 5 ədəd yeraltı dəmir-beton su anbarları, 1 ədəd 20000 m3 geotekstil membran örtüyü ilə izolyasiya olunmuş şirin su anbarı və 1 ədəd 25000 m3 dənizdən qəbul edilən duzlu su üçün torpaq su anbarları, avadanlıqların quraşdırıldığı 750 m2 bina, 120 m2 ofis binası və s. inşa edilib. Bundan başqa, 2012-ci ildə Şirvan kollektorunun suyunun duzsuzlaşdırılaraq suvarılmaya yararlı vəziyyətə gətirilməsi üçün sutkada 2500 m3 gücündə qurğu inşa edilib. 2016-cı ildə 2-ci qurğu inşa edilərək istehsal gücü 2 dəfə artırılaraq 5000 m3 çatdırılıb. Burada həcmi 500 m3 olan xüsusi örtüklə izolyasiya olunmuş metal su çəni qurulub, 1 ədəd həcmi 750 m3 və 1 ədəd 2000 m3 olmaqla, cəmi 2 ədəd yeraltı dəmir-beton su anbarı inşa edilib. Azməsrəfli adi texnologiyalardan istifadə etməklə Şirvan kollektorunun suyunu içməli su keyfiyyətinə çatdırmaq mümkündür. Bu gün Dəniz suyunun duzsuzlaşdırılması zavodu və Şirvan kollektorunun suyunun duzsuzlaşdırılması qurğularında gündə 7000 m3 həcmində suvarmaya yararlı su istehsal olunur. 2013-cü ilin yanvarından istismara verilmiş Dəniz suyunun duzsuzlaşdırılması zavodu və Şirvan kollektorunun suyunun duzsuzlaşdırılması qurğularında bu günədək 6 milyon kubmetrdən artıq su istehsal edilib. Hazırda bu sulardan suvarmaya yararlı suyun məhdud olduğu ətraf ərazilərdə salınmış 700 hektar yaşıllıqların, o cümlədən zeytun plantasiyalarının və ildə 1 milyondan artıq əkin materialı yetişdirilən tinglik sahələrinin suvarılmasında istifadə olunur.

### “Dövlət başçısı bu dəfə də müdrik düşünərək içməli su ilə ölkəni təmin etmək üçün gözəl bir addım atıb”

Belə çıxır ki, suvarmaya yararlı su alınması məsələsi həllini tapıb, qalır içməli su problemini həll etmək. Bu, mümkün olacaqmı?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, dəniz suyunun duzsuzlaşdırılması təcrübəsi dünyanın bir sıra ölkələrində, o cümlədən, İsrail və ərəb dövlətlərində mövcuddur:**



- İsrail, ərəb ölkələri bu texnologiyadan geniş istifadə edir. Hətta İsraildə, Yeni Zelandiyada işlənmiş sudan təkrar istifadə edilir. Yeni Zelandiyada həmçinin yağış sularından məişətdə geniş istifadə edilir. Hazırda ən yeni, nano-texnologiyalar var, onlardan istifadə etməklə dəniz suyunu duzsuzlaşdırmaq mümkündür. Bu, buxarlanma üsuluyla, duzun, digər mineralların suyun tərkibindən ayrılması yoluyla da mümkündür. Yaxın 10 ildə su qıtlığı ilə üzləşəcəyimiz labüddür. Azərbaycan içməli su ehtiyatlarının az olduğu ölkədir. Ona görə də suyun qədrini bilməliyik. Dövlət başçısının imzaladığı sərəncam öz yerində, lakin müvafiq qurumlar da üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Avtoyuma məntəqələrində içməli sudan istifadənin qarşısı birmənalı və qəti şəkildə alınmalıdır. İçməli su ilə avtomobil yumaq nadanlıqdır.

*Qida mütəxəssisi Ağa Salamov ”Şərq”ə açıqlamasında Prezident tərəfindən imzalanmış sərəncamın içməli su probleminin qarşısının alınmasına yönəldiyini bildirdi:*

- Duzsuzlaşdırma duzlu sudan mineral komponentləri xaric edən bir prosesdir. Belə deyək də, kənd təsərrüfatına maneçilik törədən şoran torpaqların duzsuzlaşdırılması kimi, burda da hədəf maddədən duzların və mineralların çıxarılmasıdır. Həm insanların istehlakı, həm də suvarma üçün yararlı sayılır. Enerji sərfiyyatına görə dəniz suyunun duzsuzlaşdırılması, ümumiyyətlə, səth sularından və ya yeraltı sulardan alınan şirin sudan, suyun təkrar emalı və suyun qorunmasından daha baha başa gəlir. Lakin bu alternativlər həmişə mövcud olmur və ehtiyatların tükənməsinin bütün dünyada kritik problem olduğunu da nəzərə alsaq, ölkə başçısının bu addımını ancaq dəstəkləmək və alqışlamaq lazımdır. Hesab edirəm ki, ölkə başçısı hər dəfə olduğu kimi, bu dəfə də müdrik düşünərək həm kənd təsərrüfatının geniş inkişafına, həm də içməli su ilə ölkəni təmin etmək üçün gözəl bir addım atıb.

**Məlahət Rzayeva**

# Ermənilər əsgərlərimizə işgəncələr verdi

## Azərbaycan XİN beynəlxalq təşkilatları Ermənistanın əsirlərə qarşı zorakılığına lazımi qiymət verməyə çağırıb

**İki nəfər hərbçimiz - Aqşin Bəbirov və Hüseyn Axundov Naxçıvanın Şahbuz rayonunun Ermənisanla sərhədində əlverişsiz hava şəratində azaraq itkin düşmüşdü. Bundan sonra əsgərlərimizin Ermənistan ərazisində saxlanıldığının ehtimal edildiyi nəzərə alınaraq, onların azad olunmaları ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara rəsmi müraciət olunmuşdu. Ermənistan tərəfində aprelin 10-da bir nəfər azərbaycanlı əsgərin saxlandığına dair məlumatlar, videogörüntülər yayılmışdı.**



Daha sonra Ermənistan Müdafiə Nazirliyi Zəngəzur (Sünik) mahalının Bnunis kəndində bir azərbaycanlı əsgərin saxlanıldığını, digərinin isə qaçdığını bildirmişdi. Dünən Ermənistan ərazisində itkin düşən ikinci azərbaycanlı əsgərin də saxlandığı barədə məlumat verilib. Məlumatdan az sonra bununla bağlı Ermənistan internet resurslarında videolar yayılıb. Yayılan videolarda əsgərin işgəncəyə məruz qaldığı, döyüldüyü aydın olub. Ermənistan tərəfi manipulyasiyaya əl ataraq iddia edib ki, guya, Zəngəzurdakı mis-molibden mədəninin ötən gün öldürülən mühafizəçisinin mobil telefonu əsgərimizin cibindən çıxıb.

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə qarşı törədilən işgəncə ilə bağlı məlumat yayıb.

XİN-dən daxil olan məlumatda deyilir: "Bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb.

Sosial şəbəkələrdə yayılmış videogörüntülərin birində əsir götürülmüş Axundov Hüseyn Əhliman oğluna qarşı fiziki işgəncə və qeyri-insani rəftar halları əks olunub.

Ermənistan tərəfindən etnik zəmində zorakılığın növbəti nümunəsi olan sözügedən vəziyyət ilə əlaqədar aidiyyəti beynəlxalq təşkilatlar müvafiq olaraq məlumatlandırılıb.

Ermənistan tərəfindən əsirlərə qarşı nümayiş etdirilən sözügedən zorakılıq 1949-cu il Cenevrə Konvensiyalarının, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın (CERD), beynəlxalq humanitar və insan haqları hüququndan irəli gələn digər beynəlxalq öhdəliklərin Ermənistan tərəfindən kobud şəkildə pozulmasıdır.

Aidiyyəti beynəlxalq təşkilatlar sözügedən zorakılığa, o cümlədən Ermənistan tərəfindən son 30 ildən artıq müddətdə azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, itkin düşən 3890 nəfər azərbaycanlıya qarşı zorakılıq faktlarını araşdırmalı və lazımi qiymət verməlidir".

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusuna işgəncə verilməsi faktı ilə bağlı cinayət işi başlanıb.

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, bəzi media və sosial şəbəkə səhifələrində Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun ərazisindən əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən itkin düşmüş Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun Ermənistan ərazisində əsir düşməsi və ona əlləri bağlı şəkildə açıq-aydın işgəncə verilməsi, qeyri-insanı rəftara məruz qalmasına dair videogörüntülər yayılıb.

Yayılmış həmin videogörüntülərlə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 115.2-ci (əsir düşmüş şəxslərə işgəncə vermə, onlarla qəddar və ya qeyri-insani rəftar etmə) maddəsi ilə cinayət işi başlanıb.

Qeyd olunan videogörüntülərlə bağlı zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilməklə hərbi qulluqçumuza qarşı işgəncə verən, qəddar və qeyri-insani rəftar edən şəxs və ya şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində tədbirlər görülür.

"Bəyan edirik ki, Azərbaycan vətəndaşlarına qarşı qanunsuz əməllərə yol verən şəxslərin milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb edilməsi məqsədilə xarici ölkələrin müvafiq orqanlarına müraciətlərin göndərilməsi və həmin şəxslərin cəzalandırılması üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi təmin olunacaq. İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək", - Baş Prokurorluğun məlumatında bildirilib.

Ombudsman Səbinə Əliyeva Ermənistan tərəfindən saxlanılan Azərbaycan hərbi qulluqçusuna qarşı işgəncə və qeyri-insani rəftarla bağlı faktlara münasibət bildirib. Vurğulanıb ki, "Hərbi əsirlərlə rəftar haqqında" III Cenevrə Konvensiyasına əsasən, döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərlə bütün hallarda insani rəftar edilməlidir. Hərbi əsirlər hər zaman xüsusən zorakılıq əməlləri, hədələnməkdən müdafiə olunmalıdır: "Hərbi qulluqçumuza qarşı qeyri-insani rəftar göstərilməsi faktı ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara müraciət edirəm. Ermənistan beynəlxalq hüquqa görə üzərinə götürdüyü tələblərə riayət etməlidir. Eyni zamanda Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistandakı nümayəndəliyindən təcili olaraq həmin hərbi qulluqçularımıza baş çəkilməsini və onların vəziyyəti ilə bağlı məlumatların verilməsini tələb edirəm".

**Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov "Şərq"ə bildirib ki, iki nəfər hərbçimizin itkin düşməsi və işgəncələrə məruz qalması çox aktual məsələdir.** Ekspertin sözlərinə görə, belə hallarda Azərbaycanın müvafiq qurumları dərhal fəaliyyətə keçir və Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə hərbi əsirlərin təzyiqlərə məruz qalmaması, tezliklə geri qaytarılması üçün operativ addımlar atılır: "Ermənistan tərəfi istəyir ki, hər zaman olduğu kimi iki hərbçimizin yolunu azaraq erməni tərəfinə keçməsi hadisəsini manipulyasiya etsin, öz senarilərini həyata keçirsin. Əsgərlərimizi "cinayətkar", "kəşfiyyatçı" kimi qələmə verərək, onları Azərbaycanda həbsdə olan erməni diversantlarla dəyişdirməyə çalışır. Təbii ki, bu davranış bütün humanitar prinsiplərə, demokratik hüquq normalarına ziddir. Çünki Azərbaycanda həbsdə olan erməni diversantlar konkret cinayətlər törətmiş şəxslərdir. Amma Azərbaycanın iki gənc əsgəri əlverişsiz hava şəraitinə görə yollarını azıb Ermənistan tərəfə keçiblər. Bu, sırf humanitar məsələdir. İndiyə kimi Azərbaycan tərəfi azaraq bizim tərəfimizə keçmiş həm mülki erməniləri, həm də düşmən əsgərlərini qısa müddətdə qarşı tərəfə təhvil verib. Ermənistandan da bu cür addım atmasını gözləyirdik. Ona görə də beynəlxalq təşkilatlar vasitəsilə əsgərlərimizin qaytarılmasına çalışmaq lazımdır".

**İsmayıl Qocayev**

# Ticarət dövriyyəsi 5.1 milyon dollara çatıb

## Son illər Bosniya və Herseqovina ilə Azərbaycan arasında strateji və iqtisadi əlaqələrin dərinləşməsi müşahidə olunur



**Azərbaycanın xarici siyasətində Balkan ölkələri ilə münasibətlər mühüm yer tutur. 2022-ci il oktyabrın 1-də istifadəyə verilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru Serbiyanı ümumi sistemlə birləşdirəcək.**

Hazırda üzərində iş aparılan layihələr Azərbaycan qazını alan Balkan ölkələrinin əhatə dairəsini daha da genişləndirəcək. Bu layihələr Azərbaycanın region ölkələri ilə münasibətlərinin daha da inkişafında önəmli rol oynayır. Azərbaycanın Balkan ölkələri ilə münasibətlərində Bosniya və Herseqovina ilə əlaqələr də mühüm yer tutur. Bu ölkə ilə münasibətlərin əsası hələ sovet dövründə qoyulub. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci il oktyabrın 20-də Bakı və Sarayevo şəhərləri arasında dostluq və əməkdaşlıq sazişi imzalanıb, qardaşlaşmış şəhərlər münasibətləri qurulub. Ölkələrimiz arasında diplomatik münasibətlər 1995-ci ildə qurulub. Həmin il fevralın 9-da Bosniya və Herseqovina Azərbaycan Respublikasının müstəqilliyini tanıyıb. Azərbaycanın Sarayevo şəhərində diplomatik nümayəndəliyi 2011-ci il martın 1-də təsis olunub. Ötən il iyunun 14-də isə Prezident İlham Əliyev Azərbaycanın Bosniya və Herseqovinada səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Sərəncam imzalayıb. Azərbaycanla Bosniya və Herseqovina arasında iqtisadi münasibətlər sürətlə inkişaf etsə də, mövcud göstəricilər bu sahədəki potensialı tam əks etdirmir. 2022-ci ildə Bosniya və Herseqovina Azərbaycanın 79-cu xarici ticarət tərəfdaşı olub. Həmin ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 5 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 2 milyon dollar, ixracın həcmi isə 3 milyon dolları təşkil edib. 2021-ci illə müqayisədə ötən il Bosniya və Herseqovina ilə ticarət dövriyyəsi üç dəfə artıb.

**Millət vəkili Vüqar Bayramov deyib ki, son illər Bosniya və Herseqovina ilə Azərbaycan arasında strateji və iqtisadi əlaqələrin dərinləşməsi müşahidə olunur. Deputat vurğulayıb ki, 2022-ci ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 5.1 milyon dollar olub:** "Ötən il Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı ticarət dövriyyəsi 3,2 dəfə artıb. 2020-ci illə müqayisədə isə artım 7 dəfə olub.

Aydındır ki, tərəflər arasında ticarət dövriyyəsinin artırılması üçün daha böyük potensial var. Azərbaycan Prezidentinin səfəri və aparılan müzakirələr bu imkanlardan daha çox faydalanmağa şərait yaradacaq. Bu baxımdan, Azərbaycan Prezidentinin Bosniya və Herseqovinaya səfəri ölkələr arasında münasibətlərin inkişafında yeni mərhələ olacaq. Bosniya və Herseqovina ilə həm enerji, həm də neftdən kənar sektorlar üzrə əməkdaşlıq imkanları var. Bosniya və Herseqovina da Azərbaycandan qaz almaq niyyətində olan ölkələrdəndir. İon-Adriatik (IAP) kəmərinin TAP-a inteqrasiyası mümkündür. Bu isə sözügedən ölkənin Azərbaycan qazından istifadəsinə gətirib çıxara bilər. İAP-ın ötürücülük qabiliyyəti ildə 5 milyard kubmetrdən çox olacaq. Avropada Azərbaycan mavi qazına tələb artır. Bu isə ölkənin geosiyasi mövqeyinin daha da güclənməsinə gətirib çıxarır".

**İsmayıl**

# Rusiya Vaşinqton görüşünə mane oldu

## Ekspertlər hesab edir ki, sərhəddə təxribatın olması təsadüfi deyildi

**Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova bildirib ki, Azərbaycan və Ermənistan arasında danışıqların növbəti mərhələsi Rusiyada keçiriləcək. XİN rəsmisi qeyd edib ki, Bakı ilə İrəvan Rusiyanın görüş təklifini qəbul edib. Zaxarova görüşün hansı səviyyədə keçiriləcəyini və nə vaxt baş tutacağını açıqlamayıb:**



***"Kreml indidən tərəflərə mesaj göndərir ki, sülh sazişi Vaşinqton və ya Brüsseldə imzalanarsa, bu, uzunömürlü olmayacaq"***

"Rusiyanın Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanmasına yardım göstərmək istiqamətində səyləri zəifləmir". Siyasi şərhçilərin fikrincə, Rusiya Vaşinqtonda görüşün keçirilməsi ilə bağlı xəbərdən sonra yenidən moderator rolunu ələ almaq istəyir. Moskva sülh sazişinin imzalanmasına tam nəzarət etmək niyyətindədir. Buna görə də Cənubi Qafqazda mövqelərini qoruyub saxlamağa, hətta gücləndirməyə çalışır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu xatırladıb ki, təmas xəttindəki toqquşmadan bir neçə gün əvvəl tərəflər arasında görüşün Vaşinqtonda keçirilməsi təklif edilmişdi. Ekspert vurğulayıb ki, Brüssel də növbədə gözləyir:** "Azərbaycan və Ermənistan liderləri arasında görüşün birinci hansı paytaxtda keçirilməsi uğrunda yarış başlayıb. Görüş məkanlarının əhəmiyyəti və fərqi nədədir? Moskva, Vaşinqton və Brüsselin hər üçü sözdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını istəyir. Ancaq Kreml indidən tərəflərə mesaj göndərir ki, sülh sazişi Vaşinqton və ya Brüsseldə imzalanarsa, bu, uzunömürlü olmayacaq. Bu, o deməkdir ki, sülh sazişi Qərbdə imzalanarsa, Rusiya buna müxtəlif yollarla mane olacaq, təmas xəttində gərginlik azalmayacaq. Bəs sülh sazişi Moskvada imzalanarsa, nə baş verəcək, Vaşinqton və Brüsselin reaksiyası necə olacaq? ABŞ və Avropa İttifaqının əllərində Rusiya kimi bölgəni qarışdıracaq alətləri yoxdur. Bu, onlara lazım da deyil. Vaşinqton və Brüsselə Cənubi Qafqazda sülh və bölgə ölkələri arasında əməkdaşlıq, o cümlədən Rusiyanın təsirinin azalması lazımdır. Bu olacaqsa, ABŞ və Avropa İttifaqı məmnun qalacaq. Ancaq Kreml Azərbaycanla Ermənistan arasında barışın əldə olunmasını ona görə təmin etmək istəmir ki, bölgə ölkələri ABŞ və Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirsinlər. Bu, Kremlin maraqlarına ziddir. Rusiya paytaxtında imzalana biləcək mümkün sülh sazişi bölgədə Rusiyanın təsir imkanlarını artırmağı hədəfləyir".

*Politoloq Məhəmməd Əsədullazadə də "Şərq"ə bəyan edib ki, gözlənilən Moskva görüşü sülhə deyil, böhranın davamına hesablanıb. Onun sözlərinə görə, Vaşinqton görüşü öncəsi Laçın istiqamətində Ermənistan tərəfindən təxribata yol verilməsi təsadüfi deyildi:* "Paşinyan son təxribatın dolayı yolla Ermənistan tərəfindən edildiyini və özünün xəbəri olmadığını bəyan etdi. Ermənistan baş naziri bunu deməklə, orduya tam nəzarət edə bilmədiyini, üçüncü ölkələrə işləyən hərbçilərin işi olduğunu qabartdı. Zaxarovanın görüşü Vaşinqtonda deyil, Moskvada elan etməsi də göstərir ki, Moskva təxribatın arxasında olub. Təbii ki, burada Ermənistan siyasi-hərbi dairələri də məsuliyyət daşıyır. Azərbaycanın mövqeləri qarşısında yeni postlar qurmağa cəhd etmək, ora xüsusi təyinatlı qüvvələri yerləşdirmək ciddi təxribatdan xəbər verir. Paşinyan isə bundan xəbərsiz olduğunu iddia edir. Kreml Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmaması üçün erməni ordusundan təxribatlar üçün istifadə edir. Paşinyan isə ya özünün iddia etdiyi kimi erməni ordusuna nəzarəti itirib, ya da proseslərin bu nöqtəyə gəlməsində maraqlıdır. Liderlərin Moskva görüşünə gəlincə, əminəm ki, heç bir nəticə olmayacaq. Azərbaycan Moskvada görüşə qatılmamaqla, obyektiv mövqe ortaya qoya bilər".

**İsmayıl Qocayev**

# Paşinyan imperialist maraqların qurbanıdır

## Bəlkə Ermənistanı rahat və təkbaşına buraxsalar, sülh masasına əyləşər



**"Ermənistan 10 noyabr 2020-ci ildə imzaladığı kapitulyasiya sənədindən ötən iki il müddət ərzində hər fürsətdə təxribata əl atır". Bunu "Şərq"ə açıqlamasında ehtiyatda olan general, Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi Yücel Karauz deyib. General bildirib ki, Ermənistan hər təxribat cəhdində kənar ölkələrin dəstəyini alır:**

"Bir neçə ölkə var ki, bəzən tək-tək, bəzən də birlikdə Ermənistanı Azərbaycanın üzərinə qaldırır, düşmən tərəfi təhrik edirlər. Təbii ki, Ermənistan tərəfi məğlub statusu ilə, yəni indiki vəziyyətdə Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmir. Buna görə də mümkün qədər sülh müqaviləsinin imzalanmasını uzatmağa, zaman qazanmağa çalışır. Necə ki, 1994-cü ildə Bişkekdə imzalanmış atəşkəs anlaşması zamanla sülh razılaşmasına çevrilmədi, eləcə də 10 noyabr sazişinin, yəni Ermənistanın kapitulyasiya sənədinin sülh sənədinə çevrilməsinə qarşı çıxır. Əlbəttə, bu, sadəcə İrəvanın istəyi deyil. Bəlkə Ermənistanı rahat və təkbaşına buraxsalar, sülh masasına əyləşər. Ancaq Ermənistanın arxasında duranlar, onu himayə edən beynəlxalq güclər İrəvanın sülhə yaxınlaşmasına imkan vermirlər. Hazırda Nikol Paşinyan hökuməti Ermənistanın maraqları ilə dünya güclərinin, imperialist maraqların arasında get-gəl etməkdədir. Əslində, hər keçən gün Ermənistanın vəziyyəti daha da pisləşir və çıxılmaz vəziyyətə düşür".

**Y.Karauz vurğulayıb ki, təxribatın əsas təhrikçisi İrandır:** "İran Birinci Qarabağ müharibəsi başlayan gündən etibarən birbaşa Ermənistanın yanında yer alıb. İşğalçı Ermənistanı hər cür silah-sursatla, digər yardımlarla təmin edib. Aprelin 11-də baş vermiş erməni təxribatında da əsasən İranın Ermənistana verdiyi PUA-lardan istifadə olunduğu üzə çıxdı. Bu, İran üçün çox böyük strateji yanlışlıqdır. Hadisənin incələnməsindən, SEPAH-ın açıqlamalarından aydın olur ki, baş vermiş təxribatın İranla koordinasiya edildiyini göstərir. Ermənistanı dəstəkləyən digər ölkələr isə Fransa və başqa Avropa dövlətləridir. Fransanın Cənubi Qafqazda maraqları var və Zəngəzur dəhlizinin açılmasını istəmir. ABŞ da İrəvana dəstək verən ölkələr sırasındadır. Vaşinqton bölgədəki proseslərin Azərbaycan və Türkiyə lehinə dəyişməsini istəmir. Sözsüz ki, əsas təhrikçilərdən biri də Rusiyadır. Moskva regiondakı varlığını və maraqlarını rus sülhməramlıları vasitəsi ilə təmin etməyə çalışsa da, buna nail ola bilmir".

**İsmayıl Qocayev**

# Ermənistan tərəfinin təklifi absurddur

## Azərbaycan qoşunlarını indiki vəziyyətdə sərhəddən çəkə bilməz



**Ermənistan XİN rəhbəri Ararat Mirzoyan ATƏT sədri Buyar Osmani ilə İrəvanda görüşü zamanı sərhəddə baş vermiş insidentlə bağlı açıqlamalar verib. Mirzoyan bildirib ki, Azərbaycanla sərhəddə hərbçilərin sərhədçilərlə əvəzlənməsi yeni eskalasiya ehtimalını azaltmağa imkan verəcək. XİN başçısı əlavə edib ki, artıq bəzi ərazilərdə sərhədçilər xidmət göstərir:**

"Azərbaycanla sərhədə ordu bölmələrinin əvəzinə sərhədçilərin yerləşdirilməsi münaqişənin yekun həllinin tərkib hissəsi olmalıdır. Bütün ölkələrdə sərhəd xidməti xarakterinə, hətta silah növlərinə görə ordu birləşmələrindən fərqlənir. Sərhədçilərin rotasiyası və sərhədin onların nəzarətinə verilməsi yeni münaqişələrin yaranma ehtimalını xeyli azaldacaq. Bu fikir yeni deyil, əvvəllər ictimaiyyətə açıqlanıb. İndi sülh müqaviləsi ətrafında müzakirələrin bir hissəsi kimi müzakirə olunur. İndi sərhədin bəzi hissələrində sərhədçilər var və təcrübə göstərir ki, bu hissələrdə toqquşma ehtimalı ordu bölmələrinin yerləşdiyi digər ərazilərlə müqayisədə daha azdır". Məlumat üçün deyək ki, aprelin 11-də Azərbaycan-Ermənistan sərhədində itkilərlə nəticələnən toqquşma yaşanıb. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistanın siyasi dairələrində belə bir fikir var ki, sərhəddə nəinki ordu, sərhədçi olmalı, ümumiyyətlə, silahlı güc olmamalıdır. Analitikin sözlərinə görə, ermənilər Azərbaycanla sərhədlərin demilitarizasiyasını tələb edirlər:** "Deyirlər ki, hər iki tərəfdən qoşunlar bərabər məsafədə çəkilsinlər, sərhədlərdən uzaqlaşsınlar. Hesab edirlər ki, Azərbaycan-Ermənistan sərhədlərində ordu, silahlı güc olmazsa, heç bir insident, qarşıdurma, atışma baş verməz. Mirzoyan isə bildirir ki, heç olmasa, sərhədi sərhədçilər mühafizə etsin. Əlbəttə, belə yanaşma erməni siyasətçilər üçün "ağlabatan" görünsə də, əslində çox absurddur. Çünki Mirzoyanın dediyi kimi, sərhədi ancaq sərhədçilərə həvalə etmək üçün ilk növbədə Azərbaycan-Ermənistan arasında sərhədlərin demarkasiya və delimitasiya prosesi getməli və proses uğurla sona çatmalıdır. Ondan sonra sərhədçilərin yerləşdirilməsi təklifini dəyərləndirmək olar. Ancaq sərhədlərin müəyyənləşməsi prosesi sırf Ermənistanın ucbatından dalana dirənib. İrəvanın pozuculuq mövqeyinə görə bu məsələni ölü nöqtədən tərpətmək mümkün olmayıb. İki ölkənin müzakirə aparması üçün sərhədlə bağlı ayrıca komissiyalar yaradıldı, amma komissiyalar demək olar ki, işləmir".

**İ.Vəlizadə vurğulayıb ki, ortaya qoyulmuş prinsiplər üzərindən heç bir addım atılmayıb:** "Əlbəttə, belə vəziyyətdə insidentlər olacaq, erməni tərəfi təxribatlara əl atacaq. İndiki halda sərhəddən qoşunların geri çəkilməsi təklifi nə anlama gəlir?! Sərhəd bölgələrin, rayonların təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Ordusu irəli mövqelərdə dayanmalıdır. Nəzərə alaq ki, yaxın dönəmlərdə Laçının Ermənistanla sərhəd olan ərazilərinə insanların köçü başlayacaq. Onların təhlükəsizliyini kim təmin edəcək? Ermənistan tərəfi mülki insanların həyatına təhlükə yaranmayacağına təminat verəcəkmi? Hadisələr məntiqəuyğun inkişaf etməlidir".

**İsmayıl Qocayev**

# Çörək bahalaşa bilər

## Rusiyaya təzyiqlər artdıqca "Taxıl sazişi"ndən qaçacaq



***"Belə olarsa taxılın qiyməti avtomatik qalxacaq, domino effekti baş verəcək, digər ərzaqların da qiyməti qalxacaq"***

**"Əgər problemlərin həllində irəliləyiş olmasa, mayın 18-dən etibarən "Taxıl sazişi" uzadılmayacaq". Bu barədə Rusiya Xarici İşlər Nazirliyindən bildirilib. Vurğulanıb ki, "Taxıl sazişi" əvvəlki kimi, Qərb ölkələrinin maraqlarına uyğun olaraq, rəsmi Kiyevin yalnız kommersiya maraqlarına xidmət edir:**

"Əgər belə davam edərsə, müqavilənin uzadılması barədə danışmağa ehtiyac qalmayacaq". Kremlin sözçüsü Dmitri Peskov daha əvvəl müqavilənin müddətinin növbəti dəfə uzadılması perspektivinin az olduğunu bildirmişdi. Xatırladaq ki, ötən il iyulun 22-də İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və BMT-nin Baş katibi Antoniu Quterreşin iştirakı ilə Ukrayna limanlarından taxılın təhlükəsiz daşınmasına dair saziş imzalanıb. Sənədi Ukrayna, Rusiya, BMT və Türkiyə nümayəndələri imzalayıblar. Bu ilin mart ayında "Taxıl sazişi"nin müddəti növbəti dəfə iki ay uzadılıb.

Məlum məsələdir, "Taxıl sazişi" uzadılmayacağı təqdirdə, dünya bazarlarında taxıl qıtlığı yaranacaq, buğdanın qiyməti yenə qalxacaq, adekvat olaraq ərzaq məhsullarının qiymətində də artım baş verəcək. "Taxıl sazişi"nin müddətinin uzadılmayacağı nə dərəcədə realdır və bu halda daha az zərərə uğramaq üçün ölkəmiz hansı addımları atmalıdır.

**İqtisadçı Pərviz Heydərov "Şərq"ə açıqlamasında mövcud vəziyyəti analiz etdi:**

- Rusiya Qərb dövlətləri, ABŞ tərəfindən nə qədər çox sıxışdırılıcaqsa, sahib olduğu təsir imkanlarından istifadə edərək müxtəlif vasitələrə əl atacaq. Ötən ilin əvvəlində dünya taxıl bazarında ajiotaj yarandı, taxılın, ərzaqlıq buğdanın qiyməti də kəskin qalxdı. Bizdə də bu, öz təsirini göstərdi. Azərbaycan 48-49 faiz idxaldan asılı ölkədir. Ona görə də taxıl böhranı bizə təsir etməyə bilməzdi, etdi də. Taxıl böhranının qarşısı Türkiyənin vasitəçiliyi ilə alındı, "Taxıl sazişi" imzalandı. Amma dediyim kimi, Rusiyaya təzyiqlər artdıqca, o da əlində olna təsir imkanlarını işə salır. 1 dəfə, 2 dəfə hədəyələyəcək, 3-cüdə təsir vasitələrinə əl atacaq, saziş pozacaq, müddəti uzatmaqdan imtina edəcək. Dünyada əsas taxıl istehsalçısı olan ölkələr Rusiyadı, Qazaxıstandı, Ukrayna 4-cü yerdədi. Amma müharibə səbəbindən Ukrayna əvvəlki kimi taxıl əkib becərə bilməz. "Taxıl sazişi" ləğv olunmasa da, bunun bir sonu var. "Taxıl sazişi" taxıl istehsalı ilə bağlı deyil, Ukrayna anbarlarında depolanmış taxılın satışa çıxarılmasına razılıq üçün imzalanıb. İstehsal edilmiş taxıl idi, anbarlarda qalırdı, ixrac olunmasına maneələr var idi, saziş imzalandı, taxılın anbarlardan çıxarılması mümkün oldu. İstehsal yoxdursa və ya əvvəlki illərə nisbətən xeyli aşağı göstəriciyə malikdirsə, məlum məsələdir ki, yenə taxıl böhranı yarana bilər. Əsas tədarükçüdən birinin bazarda olmaması, təbii ki, böhrana səbəb olacaq. Qiymətlər avtomatik qalxacaq, domino effekti baş verəcək, digər ərzaqların da qiyməti qalxacaq. Belə olan halda biz nə etməliyik? Əlbəttə ki, taxıl istehsalını gücləndirməliyik.

**P.Heydərov taxılçılığın inkişafdan niyə geri qaldığına tutarlı bir səbəb tapa bilmədiyini də dedi:**

- Niyə bizim ölkədə taxılçılıq inkişaf etmir? Nə səbəbə? Estoniya, Latviya kimi ölkələr, hansı ki ərazi baxımından bizim ölkədən daha kiçikdirlər, taxıl ehtiyatı formalaşdıra biliblər. Latviya dünyada özünütəminetmə səviyyəsinə görə ilk yerdə dayanır - 607,2 faiz. Yəni istehlakdan əlavə 6 dəfə çox buğda tədarük olunur. Bu ölkədə ildə 2 milyon 371 min ton buğda istehsal edilir. Ölkə özü ildə 472 min ton buğda idxal edir, əvəzində isə 2,4 milyon ton buğda ixrac olunur. Biz niyə bunu edə bilmirik? Taxılçılığa dövlət dəstəyi var, fermerlərə subsidiyalar verilir, dotasiya ayrılır. Baxırsan ki, taxılçılığa dəstək var, amma biz yenə də ərzaqlıq buğda sarıdan asılı ölkəyik. Deyirlər, bizdə becərilən buğda ərzaqlıq deyil, keyfiyyəti aşağıdır. O zaman zəhmət çəkin keyfiyyətini yüksəldin, sortunu dəyişin. Seleksiyaçı alimlər hardadı? Sanki hansısa qüvvə ölkənin taxıl sarıdan idxaldan asılı qalmasına çalışır. Məqsəd bəllidir, daha çox gəlir əldə etmək. İdxal etdikləri ərzaqlıq buğdanı daxili bazarda baha qiymətə satırlar. Rusiya-Ukrayna müharibəsi bitməyincə, taxıl ajiotajı hər an gözləniləndir. Müharibə bitsə də, taxılçılığı müharibədən əvvəlki dövrün səviyyəsinə qaldırmaq uzun müddət aparacaq. Çıxış yolumuz daxili istehsalı gücləndirməkdir. Qısa müddətdə möcüzə yarada bilmərik, amma heç olmasa, taxıl ehtiyatı yaranmalıdır ki, sabah dünya bazarında növbəti ajiotaj qalxanda, ehtiyatımız olsun. Əks halda qiymətlər yenə qalxacaq.

**Məlahət Rzayeva**

**Ermənistan Baş naziri Nikol Paşinyan ötən gün Parlamentdə çıxışı zamanı bir sıra məqamlara toxunub. Baş nazir aprelin 11-də sərhəddə baş vermiş erməni təxribatına görə Ermənistandakı "beşinci kolonu" suçlayıb. Təxribatın məhz həmin daxili güclər tərəfindən törədildiyini iddia edən Paşinyan bildirib ki, təhlükəsizlik xidməti bu məsələ ilə ciddi məşğul olmalıdır.**



# Sərhəddə təxribatları, "5-ci kolon" törədib?

## Paşinyan oxları Rusiya tərəfə yönəldir

Baş nazir qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin tərkibində xarici ölkələrin agentlərinin olması istisna edilmir: "Məsələn, yüksəkrütbəli zabit orduda təşviş yaradır və tabeliyində olanlara döyüş mövqelərini tərk etməyi tapşırır. Bu cinayətlərin motivlərini aşkar etmədən vəziyyəti izah etmək olmaz. Deməli, bu zabitlərin komandirləri ilə yanaşı, onların yuxarıdan əmr aldıqları daha bir instansiya var".

Nikol Paşinyan Sərhəd Qoşunlarının komandanı Arman Maralçyanı vəzifəsindən uzaqlaşdırıb. Paşinyan ya Ermənistanın verdiyi itkilərin günahını Maralçyanın üzərinə atıb. Ya da SQ komandanını təxribat əməliyyatını uğurla həyata keçirə bilmədiyi üçün cəzalandırıb.

**Politoloq Azər Qasımov "Şərq"ə deyib ki, Ermənistan ordusunun zabit heyətinin özü elə Rusiyanın "5-ci kolon"udur:** "Bu kolon Paşinyanın qərarlarını sabotaj etməklə məşğuldur. Paşinyan bu bəyanatı ilə Azərbaycanı günahlandıran Fransanın da verdiyi bəyanata cavab vermiş oldu. Hesab etmək olar ki, Paşinyan bu dəfə konstruktivlik nümayiş etdirdi. Gərginlikdə maraqlı olmadıqlarını, amma "5-ci kolon"un təxribatı ilə təxribata çəkildiklərini demək istədi. Təbii ki, Paşinyan bunda Rusiyanı nəzərdə tuturdu. Ermənistan daxilində "5-ci kolon" bir neçə ölkənin ola bilər, amma gərginlik yaradacaq qədər orduya nüfuz edənlər ancaq Rusiyanın agentlərindən başqaları deyil. Qərbin vasitəçiliyi ilə sülh razılaşması müzakirələri öncəsi bu təxribatı ancaq Rusiyanın "5-ci kolon"u törədə bilərdi. Məsələ heç də bizim əsgərin ora getməsindən sonrakı olayların baş verməsi deyil. Əsas məsələ bunu təhrik etmək üçün erməni əsgərlərinə Azərbaycan mövqelərinə yaxın müdafiə istehkam işləri görmək üçün əmr verən erməni zabitləridir".

**İsmayıl Qocayev**

# İranın məqsədi Zəngəzur dəhlizinə mane olmaqdır

## Əziz Əlibəyli: "Tehran Azərbaycana qarşı Ermənistanı da içinə almış bir təzyiq dairəsi formalaşdırmaq istəyir"

**İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb. Səfir bu barədə tviter hesabında paylaşım edib.**



"Azərbaycan və İran xarici işlər nazirləri arasında konstruktiv danışıqlardan sonra Prezidentin köməkçisi Hikmət Hacıyevlə də səmimi və konstruktiv söhbətim oldu.

Ümid edirəm ki, başlanan prosesin yekun nəticəsi hər iki ölkənin və regionun maraqlarına uyğun olacaq", - deyə o, paylaşımda qeyd edib.

**Görüşü dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli "Şərq"ə bildirib ki, xarici işlər nazirləri səviyyəsində əməkdaşlığa yönəlik niyyət ifadə edildikdən dərhal sonra SEPAH Azərbaycan əleyhinə fəaliyyətini bir daha nümayiş etdirdi:** "Onlar gah Azərbaycana xəbərdarlıq edir, gah videolar çəkir. Yəni bu, bütövlükdə İranın qeyri-səmimi imicini ortaya qoyur. Ümumiyyətlə, onlar Azərbaycana qarşı Ermənistanı da içinə almış bir təzyiq dairəsi formalaşdırır. Məqsəd isə rəsmi Bakını Ermənistanla sülh müqaviləsi bağlamaqdan daşındırmaq və Zəngəzur dəhlizinin reallaşmasına mane olmaqdır. Cənub qonşumuz bunu hərbi müstəviyə daşımağa çalışır. Hətta uzun müddətdir ki, bizim İrandakı səfirliyimiz bağlıdır və səfirimiz yoxdur. Çünki bizim Tehrandakı səfirliyimizə hücum olundu və hələ də Azərbaycan tərəfi qaneedici cavab ala bilməyib. Digər tərəfdən, İranın Azərbaycandakı səfirinin də diplomatik səviyyəsi aşağı vəzifəli şəxslərlə görüşə uyğunlaşdırıldı. Yəni Seyid Abbas Musəvi Azərbaycan XİN-in üçüncü-beşinci dərəcəli katibləri və idarə rəisləri ilə görüşməyə başladı. Ancaq əlbəttə, Hikmət Hacıyev ilə görüş kifayət qədər yüksəkrанqlı sayılır. Belə görünür ki, İranın ciddi niyyətlərini Azərbaycan tərəfi normal qəbul etməyə başlayacaq. Ciddi niyyət dedikdə isə cənub qonşumuzun səmimiyyəti və rəsmi Bakını qane edən münasibət göstərməsi nəzərdə tutulur".

**Nihat Müzəffər**

# "Biz bəzi nəticələrə gəlməyə yaxınlaşırıq"

## Bayden sızdırılan məxfi sənədlərlə bağlı məsələyə münasibət bildirib

**ABŞ prezidenti Co Bayden Ukrayna müharibəsi və ABŞ-ın müttəfiqləri ilə bağlı çox həssas informasiyaların mətbuata sızdırılmasına münasibət bildirib.**

APA AFP-yə istinadən xəbər verir ki, bu barədə İrlandiyada səfərdə olan Prezident Bayden jurnalistlərə deyib.

"Bunun baş verməsindən narahatam" - deyən ABŞ Prezidenti əlavə edib ki, hərtərəfli araşdırma gedir.

"Biz bəzi nəticələrə gəlməyə yaxınlaşırıq", - Bayden vurğulayıb.



Xatırladaq ki, son günlərdə Ukraynadakı müharibə və onun detalları ilə bağlı çox vacib kəşfiyyat sənədləri mətbuata sızdırılıb.

# "Mən İranı Azərbaycan üçün daha təhlükəli dövlət sayıram, nəinki Rusiyanı"

## Eldar Sabiroğlu: "İranın bu gün Azərbaycana yerləşdirdiyi əks-kəşfiyyatı daha güclü və daha qorxuludur"



**Laçın istiqamətində baş verənlər bir daha göstərdi ki, Ermənistan pozucu niyyətindən əl çəkmək fikrində deyil. Xüsusən Avropa İttifaqının missiyasının gəlişindən sonra Ermənistan rəhbərliyinin, o cümlədən Baş nazir Nikol Paşinyanın ritorikasında dəyişikliklər diqqətdən kənarda qalmır. Müşahidələr göstərir ki, sülh danışıqlarından və sərhədlərin delimitasiyası prosesindən müxtəlif bəhanələrlə yayınan Ermənistan yeni təxribatlar planlayır. Şübhə yoxdur ki, aprelin 11-də baş verənlər Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş növbəti təxribat cəhdidir.**

Lakin Avropa İttifaqının missiyasına, hansısa dairələrə arxalanaraq təxribata əl atan Ermənistanın niyyəti baş tutmadı, növbəti dəfə layiqli cavabını aldı. Ekspertlərin qənaətincə, Ermənistan bu təxribatı İran və Rusiyanın dəstəyi ilə həyata keçirə bilər. Şərhçilər xatırladırlar ki, bundan öncə Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan İrana səfər edərək həmkarı Əli Şamxani ilə görüşmüşdü. Bundan öncə isə Ermənistanın Rusiya ilə sıx təmasları olmuşdu. Ehtimal odur ki, Ermənistan məhz bu iki dövlətdən dəstək alaraq Azərbaycanla sərhəddə yenidən atəşkəsi pozub. Bölgədə baş verənlərlə bağlı "Şərq"in müsahibi ehtiyatda olan polkovnik, keçmiş millət vəkili Eldar Sabiroğludur. Polkovnik suallarımıza cavabında regionda yaşananlara öz münasibətini bildirib.

**- Eldar müəllim, aprelin 11-də Ermənistan növbəti dəfə Laçındakı mövqelərimizi ağır silahlardan atəşə məruz qoydu, şəhidlərimiz, yaralılarımız oldu. Sizcə, hazırda nə baş verir? Təxribatların geniş hərbi əməliyyatlara çevrilmə ehtimalı nə qədərdir?**

- Burada bir müəmma, anlaşılması çətin olan məsələ yoxdur. Biz bunun nəticələrini 44 günlük savaşda da müşahidə etdik. Azərbaycanın hərbi qələbəsini, 30 il işğal altında saxlanılan ərazilərimizin böyük bir hissəsinin götürməndən geri qaytarılmasını dünyanın bir sıra siyasi dairələri həzm edə bilmir. Bu səbəbdən də Azərbaycana qarşı hərbi təxribatlar həyata keçirilir. Aprel ayının 11-də baş verən silahlı münaqişəni indiyə qədər aparılan zorakı siyasətin həlqəsi kimi görürəm. Hətta günün birində vaxtaşırı bu cür silahlı təxribatların böyük müharibəyə səbəb olacağını istisna etmirəm. Təklikdə erməniyə qalarsa, onun başını Azərbaycan Ordusu sutka yarıma əzə bilər. Lakin Azərbaycan həqiqətən, müharibə tərəfdarı deyil. Problemin sülh şəraitində həllini istəyir. Dövlətimizin başlıca siyasi maraqları bunun üzərində durur. Düşmən isə şıltaqlıqlarından əl çəkmək fikrindən daşınmır. Görünür, "dəmir yumruğun" zərbəsini təkrar almaq istəyir. Bu dəfə isə zərbənin gücü daha ağır ola bilər.

**- Bu tip qarşıdurmalarda ən çox adı hallanan Rusiyadır. Bunun birbaşa Moskvanın təxribatı olduğu deyilir. Əgər Ermənistanı təhrik edən Kremldirsə, məqsəd nədir? KTMT missiyasını sərhədə gətirməkmi?**

- Təkcə Rusiyanın deyil, Azərbaycanın müstəqil surətdə inkişafını, hərbi-siyasi və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsini gözü götürməyən bəzi Qərb ölkələrinin, xüsusi ilə Amerika Birləşmiş Ştatlarının rolunu inkar etmək uşaqlıq olar. Rusiyanı başa düşdük. Onun Azərbaycana qarşı iyrənc siyasi və zorakı münasibətinin tarixi dünənin işi deyil. Onların İranla birlikdə Azərbaycanı iki yerə bölüb parçalayan siyasətləri Afrikadan gəlməyib. Özləri yetişdirdilər, özləri də yeməyə başladılar. Artıq Azərbaycan boyda ölkəni 1828-ci ildə "udduqları" kimi indi "uda" bilməzlər. Boğazlarında ilişib qalar. Bugünkü hadisələrə gəldikdə mən burada daha çox Fransanın, ABŞ-nin, Yunanıstanın, İranın, dünyanın o başında olan Hindistanın və adlarını çəkmədiyim, lakin özlərini ədalət və demokratiya, insan azadlıqlarının carçısı kimi nümayiş etdirən bir sıra beynəlxalq siyasi dairələrin qərəzli mövqeyini dəftərin hansı qulağına yazaq?! Rusiyanın planları aydındır. Putinin Hitlerlə müqayisəsini Azərbaycanda ilk dəfə mən aparmışam, onu yazım boyu Hitlerə bənzətmişəm. Nə üçün bu "qəhrəmanlığımı" dilə gətirdim!? Bununla ölkəmdəki demokratiya bazlarından soruşmaq istəyirəm. Nədən ABŞ-də keçirilməsi planlaşdırılan "Demokratiya" tədbirinə dünya ölkələrinin tam əksəriyyəti, eyni zamanda faşist xislətli Ermənistan dəvət olunur, Azərbaycan isə yox!? Hansı meyara görə belə ayrı-seçkilik edilib aydındır. Bəs bizim demokratların bu məsələdə ABŞ-yə bir balaca sözünü belə eşitmədik. Həqiqətən, bu məni məyus etdi. Çox istərdim, sizin sualınızda Rusiyanın yanında ABŞ-ni də görəydim. Qaldı KTMT-nin sərhədə yerləşdirilməsi məsələsinə, Rusiya hələ "sülhməramlı adı ilə" ordusunun Qarabağa yerləşdirilməsinin yükündən xilas olmayıb. Artıq Rusiya özünə ikinci belə problem yaradacaq gücə sahib deyil.

> *"Düşmənimizə pilotsuz PUA-ları verib üstümüzə göndərən kim idi!? Bunu da İran etdi. Düşmənçilik daha necə olur!?"*

**- İranın adını çəkdiniz. Ermənistanın mövqelərimizi İran PUA-ları ilə hədəf aldığı deyildi. Qeyd olundu ki, İran hər zamankı kimi yenə Ermənistanı dəstəkləməkdədir. İran hansı səbəblərdən Ermənistanı müharibənin yenidən alovlanmasına təhrik edir?**

- İrana gəldikdə tamam başqa bir mənzərənin şahidi oluruq. Mən bu ölkəni Azərbaycan üçün daha təhlükəli dövlət sayıram, nəinki Rusiyanı. Mən vaxtı ilə Müdafiə Nazirliyində çalışarkən İranla Ermənistanın hərbi-iqtisadi-kəşfiyyat əlaqələrinə dair müəyyən məlumatlarla tanış olmuşdum. Buna əsaslanaraq, deyə bilərəm ki, İranın bu gün Azərbaycana yerləşdirdiyi əks-kəşfiyyatı daha güclü və daha qorxuludur. Və bu imkandan Azərbaycan torpaqlarını işğal edən, Qarabağda məscidləri donuz tövləsinə çevirən erməni faşizmin geniş şəkildə istifadəsinə şərait yaradırdı. İranın fars rejimi müsəlmanlıq adı altında müsəlman ölkələrinə sözün əsl mənasında düşmənçilik mövqeyini heç gizlətmir də. Aprelin 11-də erməni hərbi qüvvələrinin Azərbaycana hücum məqsədi ilə törədilən təxribatı zamanı bir daha gördük. Düşmənimizə pilotsuz PUA-ları verib üstümüzə göndərən kim idi!? Bunu da İran etdi. Düşmənçilik daha necə olur!? PUA-ın qısa adı DRON-dur. Hələ ki, döyüşlərdə bu insansız hava aparatlarını əvəz edəcək bir silah növü yoxdur. PUA dəqiq müşahidə qabiliyyətinə, döyüş və sabit məkanlarda şəraitə uyğun olaraq informasiyaları mərkəzə daşımaq və əgər həmin ərazini qüvvələrdən zərərsizləşdirmək əmrini alarsa, həmin dəqiqə özündəki silahla nəzarətində olan sahəni yerlə-yeksan edərək geri qayıdır. Özünü müsəlman sayan, "Quran"ı və Allahını tanıyan və sevən dövlət bu xainlikləri başqa müsəlman dövlətinə edərmi!? Erməniyə bağışladığı PUA-larla Azərbaycana qarşı istifadə nəticəsində şəhidlər verdik. Ona görə də Azərbaycan dövləti və Prezident İlham Əliyev İranın ölkəmizdəki gizlin yuvalarını küçə və meydançalarımızdan haqlı olaraq qovub çıxarır. Mən bir vətəndaş olaraq İranla bağlı hakimiyyətimizin həyata keçirdiyi təmizləmə işini yüzdəyüz müdafiə edirəm. Bir məqamı da qeyd etməyi lazım bilirəm. İrandakı rejimin Azərbaycan əleyhinə siyasətinə soydaşlarımızın səsi daha gur çıxmalı, fəallıqlarını artırmalıdırlar. Bu proseslərdə passiv və səssiz qalmaları məyusluq doğurur.

**- Ümumiyyətlə, Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanması yaxın dönəmdə mümkündürmü? Ortada üçtərəfli razılaşmalar və Rusiyanın, Avropa İttifaqının, ABŞ-nin vasitəçilik təşəbbüsləri var. Sizcə, bunların hansı uğurlu nəticə verə bilər?**

- Bu sualınıza qısa və konkret cavab verməı istərdim. İndiyə qədər az qala 100-lə beynəlxalq təşkilat problemin həllinə cəlb olunub. Hansının işi işğalçını geri çəkilməyə məcbur edib? Heç birinin. Onların içərisində ya ermənilərə işləyəni olub, ya da bu problem bəziləri üçün o dərəcədə ciddi əhəmiyyət kəsb etməyib. "Dəmir yumruğu" ikinci dəfə Paşinyanın başına endiriməyincə yerlərində sakit oturmayacaqlar. Artıq üçüncü Vətən müharibəsi başlayıb. Azərbaycanı düşmənə təslim etməmək üçün hər bir vətəndaşımız döyüşə hazır olmalıdır. Bu ağır gündə hər kəs dövlətin, Ordunun, Ali Baş Komandanın əmr və göstərişlərini yerinə yetirməyi özünün namus borcu bilməlidir. Biz sülh istəyirdik, qarşısını kəsdilər. Allahın köməkliyi, xalqın birliyi, qəhrəman əsgərimizin, Prezident İlham Əliyevin qətiyyəti sayəsində qələbə yenə bizimlə olacaq.

**İsmayıl Qocayev**

---



# Fransanın bəyanatı ədalətli deyil

## Ermənistan Aİ-nin missiyasını öz təcavüzkar siyasətinin bir hissəsinə çevirir

**Fransa hökuməti Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidentlə bağlı "dərin narahatlığını" bildirib. Rəsmi Paris bildirib ki, Ermənistanın "ərazi bütövlüyünə" hörmət edilməlidir və Azərbaycan qüvvələri təmas xəttində Ermənistanın işğal olunmuş mövqelərindən çıxarılmalıdır.**

Azərbaycan Xarici İşlər Nazirliyi Fransanın qərəzli bəyanatını cavabsız qoymayıb. XİN-dən vurğulanıb ki, Fransanın bəyanatı reallığı əks etdirmir. Qeyd olunub ki, Fransanın bəyanatı ədalətli deyil: "Fransa tərəfinin birtərəfli əsasda yalnız Ermənistanın ərazi bütövlüyünə hörmət edilməsinin vacib olduğunu bildirməsi ölkəmizə qarşı qərəzin nümunəsidir. Fransa tərəfini, Ermənistanı növbəti təxribatlara təhrik edən, revanşist qüvvələrə dəstək verən bu kimi bəyanatlardan çəkinməyə çağırırıq".

**Politoloq Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Fransa növbəti dəfə ənənəvi ermənipərəst mövqedən çıxış edib.** Analitik deyib ki, təxribat aprelin 11-də bilavasitə Ermənistan silahlı qüvvələrinin Laçın rayonu istiqamətində yerləşən mövqelərimizi atəşə məruz qoyması nəticəsində baş verib. Fransa tərəfi isə ədalətsiz şəkildə bəyanatında Azərbaycana mesaj ünvanlayıb. Fransa sərhədin Ermənistan tərəfində yerləşdirilmiş, gərginliyin azaldılmasında "əsaslı rol oynayan" Aİ müşahidə missiyasının fəaliyyətini tam dəstəklədiyini vurğulayıb. Halbuki son zamanlar Ermənistan hakimiyyətinin ritorikasını sərtləşdirməsi, irəli sürülən bütün təşəbbüsləri bloklaması və Azərbaycana qarşı əsassız iddialarla çıxışlar etməsi məhz Aİnin missiyası ilə bağlıdır. Sirr deyil ki, Avropa İttifaqının missiyasının Ermənistana gəlməsi bu ölkənin hakimiyyətini cəsarətləndirib. Ermənistan bu missiyanı öz təcavüzkar siyasətinin bir hissəsinə çevirir. Nəticə etibarilə Fransa bu bəyanatla növbəti dəfə qeyri-ədalətli mövqe nümayiş etdirib. Rəsmi Parisin mövqeyini qərəzli edən əsas məqam isə 25 ilə yaxın müddətdə münaqişənin həllində vasitəçi olarkən Ermənistanın təcavüzünə və işğalçı siyasətinə "dur" deməməsi, bununla bağlı heç bir addım atmamasıdır".

**İsmayıl**

---

# Avtobus və yük maşınları texniki baxışdan yayınmamalıdır

## Bu, əvvəlcə sürücülərin şəxsi təhlükəsizliyi, həm də ictimaiyyət üçün vacibdir



**Baş Dövlət Yol Polisi İdarəsi avtomobillərin dövlət nömrə nişanlarına qanunsuz müdaxilə etməklə texniki baxışdan yayınmaq istəyən avtobus və yük maşını sürücülərinə müraciət edib.**

Müraciətdə bildirilir ki, artıq bir neçə müddətdir ki, nəqliyyat vasitələrinin sahiblərinə fasiləsiz və daha keyfiyyətli xidmət göstərilməsi, eləcə də vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə Baş Dövlət Yol Polisi İdarəsinin paytaxtın Sabunçu və Qaradağ rayonlarında yerləşən Texniki Müayinə Mərkəzlərində 24 saat fasiləsiz iş rejimi tətbiq edilib. Eyni zamanda xidmətin fasiləsiz təşkili ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq komissiyası tərəfindən Bakı şəhərinə girişi və paytaxt ərazisində hərəkəti müəyyən olunmuş müddətlərdə məhdudlaşdırılmış yük avtomobillərinin, habelə gündüz saatlarında sərnişin daşınması ilə məşğul olan avtobusların sahiblərinə və sürücülərinə nəqliyyat vasitələrini iş saatlarından sonra texniki baxışa təqdim etmək imkanı yaradılıb. Amma yaradılan şəraitə baxmayaraq, sərnişin daşınması ilə məşğul olan, habelə yük avtomobilləri sürücüləri arasında müxtəlif yollarla nəqliyyat vasitələrini texniki baxışa təqdim etmək istəməyənlərə, bəzi hallarda texniki baxışdan yayınmaq üçün avtobuslarda dövlət nömrə nişanlarına qanunsuz müdaxilə hallarına yol verildiyinə rast gəlinir. Sərnişindaşıma ilə məşğul olan sahibkarların, sürücülərin, hüquqi və fiziki şəxslərin nəzərinə çatdırılır ki, avtomobillərini texniki baxışdan keçirməyənlər, həmçinin qeyd olunan qayda pozuntularına yol verən şəxslər İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunur.

**Sürücülərin avtomobillərini texniki baxışdan yayındırması probleminə toxunan nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli qeyd etdi ki, burada bir neçə səbəb var:**

- Sərnişin avtobusları sərnişindaşıma şirkətləri tabeliyində fəaliyyət göstərir və avtomobillərin texniki baxışdan keçirilməsinə də həmin şirkətlər məsuldur. Məsuliyyət şirkət rəhbərliyinin üzərinə düşür. Niyə yayınırlar texniki baxışdan, çünki istər sərnişindaşımada, istəsə də yükdaşımada istifadə olunan nəqliyyat vasitələri köhnədir, bir çoxunun istismar müddəti bəlkə də çoxdan bitib. Bu avtomobillər texniki baxışa təqdim olunsa, yararsız hesab ediləcəklər. Ya da məlum məsələdir, sürücü texniki baxışdan keçmə sənədi üçün pul ödəməli olacaq. Kimsə məndən inciməsin, texniki müayinə mərkəzlərində konkret "bazardır". Hər avtomobilə qiymət qoyulub, pulu ödə, texniki baxış sənədi al. Müayinədə o qədər nöqsanlar çıxarırlar ki; filan lampa yanmır, təkərlər filan qədər yeyilib, mühərrik nasazdı, atmosferə zərərli qaz çox ötürür... və sair. Dövlət rüsumu var, bəli. Məsələn, kiçik avtomobillər üçün dövlət rüsumu 30-35 manatdır. Amma o qədər nöqsan "aşkarlayırlar" ki, məbləğ böyüyür. Nasazlıqları qaradan qaldırmaq üçün 1000-1500 manat vəsait tələb olunur. Bunu nə şirkət ödəmək istəyir, nə də sürücünün belə bir maddi imkanı var. Ona görə də sürücü hesab edir ki, avtomobili texniki müayinəyə aparmaq sərfəli deyil. Sürücülər avtomobildəki nasazlığın nədən ibarət olduğunu bilir, özləri birtəhər həll edirlər. Bu, yaralı, problemli bir məsələdir. Texniki müayinə anormal prosedura çevrilib.

**İ.Hüseynli qeyd etdi ki, xarici ölkələrdə avtomobillərin məcburi texniki baxışa cəlb olunması çoxdan ləğv edilib:**

- Avtomobil sahibi özü şüurlu şəkildə anlayır ki, idarə etdiyi nəqliyyat vasitəsini texniki baxışdan keçirməlidir. Ən əvvəl, bu, onun şəxsi təhlükəsizliyi üçün vacibdir, həm də ictimaiyyət üçün. Mən avtomobili özüm könüllü şəkildə texniki baxışdan keçirirəm. İdarə etdiyim avtomobil niyə məcburi texniki baxışa cəlb olunmalıdır?!. Amma nəqliyyat vasitələri müxtəlifdir, sürücülər də, təbeliklərində olduqları daşıyıcı şirkətlər də. Bəziləri texniki baxış zamanı xərclərinin böyük olacağını bildiyindən bu prosedurdan yayınır, 1000 manata başa gələcək işi 500 manata, fərdi qaydada həll etməyi üstün tutur.

**Məlahət Rzayeva**

---

# Əsgərimizə işgəncə müharibə cinayətidir

## Ermənistan dövləti konvensiyanı və "Roma statusu"nun müddəalarını pozub



**Ermənistan KİV Zəngəzurda (Sünik) Azərbaycan ordusunun hərbi geyimində olan şəxsin saxlanılmasının görüntülərini yayıb.**

"Şərq" xəbər verir ki, görüntülərdən saxlanılan şəxsin vəhşicəsinə döyüldüyü hiss olunur.

**Məsələ ilə bağlı açıqlama verən Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bildirib ki, həm Ermənistan, həm də Azərbaycan Cenevrə konvensiyasına tərəfdaşlıq edir.** O qeyd edib ki, belə hərəkətlər hərbi əsirlərlə davranış konvensiyasının bütün müddəalarına ziddir: "Bu hadisənin tərkibində beynəlxalq cinayətlər qrupuna daxil olan iki növ qanunsuzluq var. Biri müharibə, digəri isə insanlıq cinayətidir. Müharibə cinayəti o halda baş verir ki, insanlar öldürülür, mülki obyektlər dağıdılır. "Roma statusu"na görə işgəncə insanlıq əleyhinə cinayət hesab edilir. Ermənistan bu statusu ratifikasiya etməyə hazırlaşır. Statusu ratifikasiya etdikdən sonra bu epizod imkan verir ki, Ermənistan öz vətəndaşlarına qarşı cinayət işi başlatsın və onları həbs edib, Haaqaya göndərsin".

Sədr əlavə edib ki, Ermənistan dövləti konvensiyanı və "Roma statusu"nun müddəalarını pozub: "Cenevrə konvensiyasında hərbi əsirlərlə davranış qaydaları var. Hərbçimizin işgəncə görməsi isə müharibə cinayətləri fəslinə aiddir. Yəni Ermənistan qanunvericiliyi imkan verir ki, baş verən hadisəyə görə lazımi şəxslər məsuliyyətə cəlb edilsin. Biz isə bu hadisə haqqında dərhal bəyanat yaymalı, aidiyyəti beynəlxalq qurumlara məlumat verməli və dünyaya bildirməliyik. Digər tərəfdən, Ermənistan hökumətindən cinayətkarların cəzalandırılmasını tələb etməliyik. Həmçinin bizim tərəfimizdən də cinayət işi açılmalı və hadisəni törədənlərin kimliyi məlum olduqda onlar beynəlxalq axtarışa verilməlidir. Ümumiyyətlə, "Roma statusu" əsasında beynəlxalq cinayət məhkəməsi belə davranışlara görə otuz il müddətində cəza nəzərdə tutur".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi




# Təşəbbüslər artır

## Son illərdə ölkəmizdə süni intellekt sahəsində oyanış müşahidə olunur

**Hazırda informasiya cəmiyyətinin, IV sənaye inqilabının əsas trendlərindən biri süni intellekt texnologiyalarıdır. Hətta süni intellekt yeni sənaye dövrünün zərurətidir. Bu istiqamətdə uğurlu fəaliyyəti təmin edə bilən dövlətlər gələcək dünyanın əsas yeni güc mərkəzlərini formalaşdıracaq. Müasir süni intellekt metodları yeni biznes imkanlarının yaranması, dövlət və özəl qurumların effektiv idarə edilməsi istiqamətində geniş imkanlar vəd edir.**

Süni intellekt iş əmsalının artırılmasında, istehsalatda vaxta, enerji resurslarına və büdcə vəsaitlərinə qənaət etmə, qəzaların profilaktikası və sair baxımdan əvəzolunmaz texnologiyadır. Dünya Sİ sahəsində yarışa, daha dəqiq deyilsə, amansız rəqabətə şahidlik edir. ABŞ və Çin bu sahədə liderlik edir. Bununla yanaşı, Çin həm də dünyanın "Süni İntellekt influenseri" statusunu qazanıb.

Son illərdə ölkəmizdə süni intellekt sahəsində oyanış və inkişaf müşahidə edilir. Hər keçən gün data elmi və süni intellekt elminin dövlət və özəl qurumların diqqətini daha çox çəkdiyinin və süni intellekt istiqamətində təşəbbüslərin artan surətdə çoxaldığının şahidi oluruq.

Qlobal iqtisadiyyata sıx inteqrasiya olunan və dünyadakı müasir trendlərdən kənar qalmayan Azərbaycan üçün bu texnologiyaların inkişaf etdirilməsi vacibdir.

Ölkələrin Sİ hazırlığının müxtəlif aspektlərini araşdıran "Oxford Insights" indeksi kimi ümumi indekslər Azərbaycanı 2022-ci ildə 181 ölkə arasında 74-cü yerdə qərarlaşdırıb. Azərbaycan öz regionunda lider mövqeyini əyani şəkildə nümayiş etdirir.

Qeyd edək ki, Azərbaycanda milli süni intellekt strategiyasının hazırlanması üçün yol xəritəsi tərtib olunub.

Bunu Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı-direktoru Tamerlan Tağıyev İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Dayanıqlı inkişaf üçün texnologiyalar: 4Sİ texnologiyaları və bulud həlləri" mövzusundakı tədbirdə çıxışı zamanı deyib. Onun sözlərinə görə, yaxın zamanlarda süni intellekt satınalmaları layihəsinin təqdimatı keçiriləcək: "Rəqəmsal ticarət sahəsində ilk əməkdaşlığımız qardaş Türkiyə ilə baş vermişdi. Hazırda digər ölkələrlə də rəqəmsal ticarət sahəsində əməkdaşlığın qurulması istiqamətində tədbirlər görülür. Əşyaların interneti sahəsinin inkişafı üzrə kiçik və orta sahibkarlarımız Dünya İqtisadi Forumun müvafiq sorğularında iştirak edib. Bu sahənin inkişafı ilə bağlı keçiriləcək tədbirlərin siyahısı müəyyənləşdirilib və gələcəkdə bu istiqamətdə işlər planlaşdırılır".

T.Tağıyev vurğulayıb ki, ölkə üçün rəqəmsal iqtisadiyyat strategiyasının hazırlanması və təsdiq olunması ilə bağlı hökumət çərçivəsində aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə müvafiq işçi qrupu yaradılıb: "Beynəlxalq məsləhətçi şirkətin cəlb olunması ilə strategiyanın hazırlanmasına başlanılıb. Həmin strategiya rəqəmsallaşma prosesinin tənzimlənməsi üçün faydalı olacaq. Burada həm rəqəmsal infrastrukturun təmin olunması istiqamətində tədbirlərin müəyyənləşdirilməsi, yüksək internetin həm əhatəsinin genişləndirilməsi, həm də dayanıqlı və əlçatan olması nəzərdə tutulub".

Məlumat üçün deyək ki, Azərbaycanda Dördüncü Sənaye İnqilabı Mərkəzi - Dünya İqtisadi Forumu şəbəkəsinin bir hissəsidir. Mərkəz öz fəaliyyətini dövlət və özəl sektordan olan tərəfdaşlarla, eləcə də akademik dairələrlə əlaqələndirməyə çalışır. Bakı Dördüncü Sənaye İnqilabının Sİ kimi əsas texnologiyalarının yaratdığı imkanlardan faydalanmaq üçün siyasət və tənzimləyici çərçivələri hazırlamaq və sınaqdan keçirmək istiqamətində bu addımları atır.

İKT ekspertlərinin fikrincə, ölkənin Sİ üzrə milli strategiya hazırlamaq səyləri onun regional liderliyini gücləndirmək, eləcə də özünə qlobal səhnədə yer tutmaq üçün yaxşı başlanğıcdır. Nəhayət, milli Sİ strategiyası Sİ-nin faydalarından istifadə etməyə, davamlı Sİ ekosistemi yaratmağa kömək edəcək, əlaqəli riskləri minimuma endirəcək.

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz isə "Şərq"ə açıqlamasında deyib ki, dünyada süni intellektin inkişafı çox sürətlənib. Cəmiyyətin bütün sahələrində, dövlət və özəl sektorlarda hamı süni intellektin tətbiqi ilə məşğuldur:** "Strateji yanaşma nəticəsində süni intellekt milli məqsədlərə, eləcə də siyasət və sənaye proqramlarına nail olmağı sürətləndirməyə kömək edə və ən əsası, vətəndaşları daha yaxşı dövlət xidmətləri ilə təmin edə bilər. Hazırda ABŞ və Çin qlobal Sİ yarışında bir çox cəhətdən üstün mövqedədir. Bununla belə, hesab edirəm ki, hər bir ölkənin və regionun müəyyən sahələrdə sıçrayış etmək, eləcə də qlobal Sİ ekosistemini təkmilləşdirmək üçün ümumi təyinatlı texnologiyadan istifadə etməkdə özünəməxsus imkanları var. Qlobal güclərin ortaq qərarına görə, süni intellekt tətbiqlərindən istifadə etməyən dövlətlər "oyun"dan kənar qalacaqlar.

Hətta bir çox ölkələrdə süni intellektlə bağlı oturuşmuş layihələr həyata keçirilir. Tanınmış dünya şirkətlərinin hamısı daha da irəli getmək üçün süni intellekt həllərinə qoşulurlar.

Azərbaycanda da Sİ-nin inkişafı istiqamətində müəyyən addımlar atılıb. Dövlətimizin başçısının 2021-ci il 6 yanvar tarixli Fərmanı ilə "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılıb.

Lakin çox təəssüflə qeyd etməliyəm ki, Azərbaycana elektronlaşma, rəqəmsal transformasiya ləngiyir. Nə adıkeçən "Dördüncü Sənaye İnqilabının Təhlili Mərkəzi", nə də digər müvafiq qurumlar süni intellektlə bağlı ortaya real işlər çıxara biliblər. Nə konseptual sənəd, nə də dövlət və özəl sektorda süni intellekt həllərinin tətbiqi ilə bağlı real nümunələr var. Bu isə sözügedən Mərkəzin fəaliyyətinin günün tələbləri səviyyəsində olmadığını göstərir. DSİTM-nin fəaliyyəti kosmetik açıqlamalar və gələcəyə yönəlik vədlərdən o tərəfə keçmir. Ötən iki il ərzində bu qurum ciddi bir sənəd hazırlayıb qəbul etməli idi. Milli Süni İntellekt Strategiyasının qəbulu da çox ləng gedir.

Hətta maraqlısı odur ki, ayrı-ayrı nazirliklərə rəqəmsal transformasiya konseptini hazırlandığına dair açıqlamalar verilir. Buna rəğmən indiyədək ölkə üzrə rəqəmsal transformasiya konsepsiyası təsdiqlənməyib. Hər bir nazirlik və ya dövlət qurumu deyir ki, onun datasının sahibi elə özüdür. Qəribə səslənsə də, reallıqda vəziyyət belədir. Məhz bunun nəticəsidir ki, hələ də bir çox dövlət qurumları rəqəmsala keçə bilmir, vətəndaşlardan kağız formada, pdf formada sənədlər tələb edir. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi süni intellekt həllərinin tətbiqində marağı olan tərəfləri bir yerə cəmləşdirib, çoxdan vahid sənəd qəbul etməli idi. Ümid edirəm ki, ən azı bundan sonra qurum fəaliyyətini canlandırıb, ortaya real nəticələr qoyacaq".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

## "Yenə eyni həvəslə fəaliyyət göstərəcəm"

Azər Həsrət: "Deputatlar etimad göstərərsə, yenidən İTV-nin Yayım Şurasının üzvlüyünə təsdiqlənəcəyik"



**İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım Şurasına yeni namizədlər irəli sürülüb. Mətbuat Şurası Azər Həsrət və Aqil Ələsgərin İTV-nin Yayım Şurasının üzvlüyünə namizədliyini təklif edib.**

Digər aidiyyəti qurumlardan da namizədlərin irəli sürüləcəyi vurğulanıb. İctimai Şuraya namizədliklə bağlı "Şərq"ə danışan tanınmış jurnalist, "bayraqdar.info" saytının baş redaktoru Azər Həsrət deyib ki, o, hazırda da İctimai Televiziyanın İctimai Şurasının üzvüdür. Ekspert bildirib ki, 2017-ci ilin aprelində Milli Məclis onun üzvlüyünü təsdiq edib: "Ötən 6 il ərzində Yayım Şurasının birbaşa içindən fəaliyyətini müşahidə etmək imkanım olub. Eyni zamanda İctimai Teleradionun fəaliyyəti ilə bağlı müzakirələrdə iştirak etmişəm. Ümumi qənaətim bundan ibarətdir ki, Yayım Şurası istər mənim üzv olduğum son 6 ildə, istərsə də ondan öncəki 12 il ərzində yetərincə dinamik təşkilat olub. Bu qurum ictimai yayım haqqında qanuna uyğun fəaliyyət göstərib, üzərinə düşən bütün vəzifələri yerinə yetirib. Rəhbər vəzifələrə kadrların təyinatı, baş direktorun seçilməsi, ümumi yayım siyasəti və s. məsələlərdə Yayım Şurası kifayət qədər fəallıq göstərib. Lakin öz fəallığımızı yetərincə işıqlandırmamışıq. Bu da səbəbsiz deyil. Yayım Şurasının iclasları bir qayda olaraq ümumi işin keyfiyyətinin yüksəldilməsi üçün daxili müzakirələr şəklində keçirilir. Ancaq biz orada uğurlarımızla yanaşı, öz çatışmazlığımızı da müzakirə etmişik, təkliflərimizi səsləndirmişik. Bütün iclaslarımızda İctimai Televiziyanın baş direktoru iştirak edib və TV-nin fəaliyyəti ilə bağlı tənqidi fikirlərimizi səsləndirmişik. Şübhəsiz, xeyli uğurlar var və onlarla bağlı fikrimizi bildirmişik".

**A.Həsrət bütün bunların fonunda namizədliyinin yenidən irəli sürülməsini Mətbuat Şurasının etimadı kimi qəbul edib:** "Mətbuat Şurası İTV-nin Yayım Şurasında bir nəfərlə təmsil olunur. O baxımdan bunu özümə böyük etimad hesab edirəm. Eyni zamanda ötən 6 il ərzində göstərdiyim fəaliyyətin məqbul və təqdirəlayiq qarşılanması kimi qiymətləndirirəm. Görünür, işimdən razı olublar ki, namizədliyimi yenidən irəli sürüblər. Məsələyə sabah Milli Məclisin Mədəniyyət Komitəsində, daha sonra plenar iclasında baxılacaq. Deputatlar etimad göstərərsə, yenidən İTV-nin Yayım Şurasının üzvlüyünə təsdiqlənəcəyik. Təsdiq ediləcəyim təqdirdə yenə də eyni həvəslə fəaliyyət göstərmək əzmindəyəm".

Jurnalist vurğulayıb ki, bunlar bir daha ondan xəbər verir ki, Azərbaycanda, həqiqətən də, ictimai yayımla bağlı cəmiyyət çox diqqətlidir: "Yayım Şurasının üzvləri olaraq bu diqqətdən məmnunuq. Bizdən istənilən hesabatları təqdim etməyə hər zaman açıq olmuşuq. Şəxsən özüm sosial media üzərindən İctimai Yayım Şurası ilə bağlı aparılan müzakirələrdə ən sərt tənqidlərə belə təmkinlə cavab vermişəm. Sosial mediada qeyd olunan tənqidləri Yayım Şurasının iclaslarında səsləndirib müzakirəsinə təşəbbüs göstərmişəm. Yayım Şurasının 9 üzvü var. Sağ olsun həmkarlarım ki, bu təşəbbüslərə hər zaman müsbət yanaşıblar, top-tüfənglə qarşılamayıblar. Əksinə, deyiblər ki, belə məsələlər müzakirə olunmalı, çatışmazlıqlar aradan qaldırılmalı, cəmiyyətin gözləntisinə cavab verilməlidir".

**İsmayıl Qocayev**

# İslahatlar başladı

## Bütün bağçalarda kameralar quraşdırılacaq

**Elm və Təhsil Nazirliyinin tabeliyindəki 1700-ə yaxın bağçanın monitorinqi aparılıb. Bunu Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev media nümayəndələri üçün keçirilən seminarda deyib. O bildirib ki, monitorinq zamanı infrastrukturla bağlı ciddi problemlər aşkarlanıb:**

"Bəzi bağçaların əsaslı təmirə ehtiyacı var. Bir çox bölgələrdə bağça ehtiyacları da var. Bu ehtiyacları müəyyənləşdirib müvafiq işlər aparmağı düşünürük. Həmçinin araşdırmalarımız göstərdi ki, bir çox tərbiyəçinin ciddi təlimlərə ehtiyacı var, tədrislə bağlı resurs qıtlığı müşahidə edilir. Bu nəticələrlə bağlı nazirlikdə həm qısamüddətli, həm də uzunmüddətli həllər işlənib hazırlanıb".

E.Əliyev seminarda bağça çatışmazlığı probleminə də diqqət çəkib. Onun sözlərinə görə, Bakı, Sumqayıt və Abşeronda əhali sıxlığına görə kifayət qədər bağça yoxdur: "Bu bölgələrdə elə bağçalar var ki, bütün yerlər doludur, lakin 300-400 valideyn növbə gözləyir. Biz bu problemin aradan qaldırılmasına çalışırıq. 2023-cü ilin I rübü ərzində ölkədəki bağçalarda 3 monitorinq aparılıb, monitorinq 1000-ə yaxın bağçanı əhatə edib. Bəzən müşahidə edilib ki, bağçalarda yerlər tutulub, lakin uşaqlar gəlməyib".

Şöbə müdirinin sözlərinə görə, qeydiyyatdan keçib gəlməyən uşaqların bağçadan xaric olunması prosedurunun işlənilməsi nəzərdə tutulur.

O bildirib ki, bunun üçün normativ sənədlərə düzəliş ediləcək: "Elə etməliyik ki, növbədə dayanan valideynlər uşaqlarını bağçaya yerləşdirə bilsinlər".

Qeyd edək ki, bağçalarla bağlı həyata keçirilən islahatlardan biri də isti qidaların verilməsidir. E.Əliyevin sözlərinə görə, Bakının 3 rayonu, Gəncə, Mingəçevir və Bərdədə məktəbəqədər təhsil müəssisələrində isti qida yeməklərin paylanması ilə bağlı pilot layihə icra edilir. O bildirib ki, bu ilin sonuna qədər pilot layihənin qiymətləndirilməsi aparılacaq və uyğun olarsa, gələn il əhatə dairəsi genişləndiriləcək.

"Beləliklə, artıq ərzaq əsaslı yox, menyu əsaslı yeməklər verilir. Hesab edirik ki, yeməklərin ketrinq şirkətləri tərəfindən verilməsi şəffaflığı artıracaq. İşi özümüz icra edəndə ona nəzarət çətin olurdu, lakin indi sifarişçi və nəzarət edən tərəfik. Belə olanda nəzarət daha güclü olur". ETN rəsmisi onu da deyib ki, gələcəkdə hər bağçanın daxilində qidanın peşəkar müəssisə tərəfindən hazırlanıb verilməsi təmin olunacaq. O bildirib ki, lakin indi yeməklər bir mərkəzdən göndəriləndə belə bunun müəyyən standartları var: "Xüsusi qablaşdırmada, müəyyən müddət daxilində çatdırılmalıdır ki, qida pozulması olmasın və isti formada təqdim olunsun".



### İsti yeməklərin ketrinq şirkətləri tərəfindən verilməsi şəffaflığı artıracaq

E.Əliyevin sözlərinə görə, bağçalarda kameraların quraşdırılması ilə bağlı fəaliyyət nəzərdə tutulub. Müəyyən bağçalarda kameralar olduğunu xatırladan şöbə müdiri deyib ki, kamera olmayan bağçalarda da quraşdırma işləri aparılacaq.

2023-cü ildə 18 bağça müdirinin işdən azad olunduğunu deyən ETN nümayəndəsinin sözlərinə görə, proses davam etdirilir."Bu vaxta qədər isə 100-dən artıq bağça tərbiyəçisini işə qəbul etmişik".

"Bağça tərbiyəçilərinin sertifikasiyası üçün normativ sənədin hazırlanması istiqamətində Elm və Təhsil Nazirliyində iş başlayıb. 2026-cı ilə qədər bu proses icra olunacaq"- deyə E.Əliyev sonda qeyd edib.

**Qida məsələləri üzrə mütəxəssis Ağa Salamov isə "Şərq"ə açıqlamasında deyib ki, uşaq bağçalarının isti yeməklə təmin edən ketrinq şirkətinin hansı şərtlərdə fəaliyyət göstərməsi çox vacibdir. Həmin şirkətləri Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) birbaşa nəzarətə götürməlidir:** "Uşaqların sağlamlığı baxımından qida zəncirində qırılmaların olub-olmaması, riskli qidaların bişirilmə və ərzaqların saxlanılma şəraiti, yeməklərin isti qalmasını təmin etmək üçün hansı qablarda daşınacağı da vacibdir. Şirkətə daxil olan məhsulların mənşəyi araşdırılmalıdır. Onun hansı temperaturda oraya çatması məlum olmalıdır. Bəlkə həmin ketrinq şirkəti daha çox gəlir əldə etmək üçün ucuz qiymətə cücərmiş və vaxtına az qalmış ərzaqları alıb yeməklərdə onlardan istifadə edir? Bütün bunlara ciddi nəzarət olunmalı və mütəmadi reydlər keçirilməlidir. Süd, ağartı və toyuq məhsulları ciddi nəzarətdən keçməlidir. Toyuqlarda mikrobioloji çirklənmə olduğu zaman, bu, uşaqlara da təsir edir. Ketrinqə gələn ətin emalına ciddi fikir verilməlidir. Onun hansı temperaturlu otaqda emalına ciddi nəzarət tətbiq edilməlidir. Həmçinin onun emal prosesinə fikir verilməlidir. Bütün bunları araşdırmaq lazımdır. Onların şəraiti, temperaturu, hətta ərzaq doğranılan taxtanın təmizliyi araşdırılmalıdır. Ət doğranılan taxta ilə tərəvəz taxtaları ayrılmalıdır. Bu da uşaqlar arasında zəhərlənməyə səbəb olur. Soyuq depolar da yoxlanılmalıdır".

**Şöbə müdirinin bağça çatışmazlığı ilə bağlı dediklərini şərh edən təhsil eksperti Kamran Əsədov isə ölkədəki uşaq bağçalarının sayının bağçayaşlı uşaqların sayı ilə tərs-mütənasib olduğunu qeyd edib.** K.Əsədov xüsusən paytaxtdan kənar ərazidə yerləşən qəsəbələrdə uşaqların bağçaya yerləşdirilməsində ciddi problemlər olduğunu deyib.

Onun sözlərinə görə, qəsəbələrdə əhali sıxlığı böyük, bağçaların sayı isə azdır: "Dünya praktikasında bağça çatışmazlığı probleminin həllini dövlət müəssisələri ilə yanaşı özəl sektorun inkişafında görürlər. Özəl bağçalar şəbəkəsinin genişlənməsinə dövlət dəstək verir, bu bağçalar vergidən azad edilir, müəyyən güzəştlər tətbiq edilir. Ona görə də özəl bağçalarda ödəniş o qədər də yüksək olmur, özəl sektor uşaqların bağçalara yerləşdirilməsində dövlətin yükünü bölüşür. Bu o deməkdir ki, əgər bizdə də özəl bağçalara dövlət dəstəyi olsa, uşağın qeydiyyatda olduğu ərazidəki dövlət uşaq bağçasında əgər boş yer yoxdursa, valideyn yaxınlıqda yerləşən özəl bağçaya uyğun məbləğdə ödəniş etməklə övladını onlara tapşıra biləcək".

**Şəymən**

# Solmuş arxiv qovluqlarında yaşayan ömür

## İlk qadın pedaqoqlardan Səhra xanım Zeynalovanın fəaliyyəti öyrənilməlidir



**Azərbaycanda qadın təhsilinin əsasının qoyulmasında və onun inkişaf etdirilməsində, müsəlman xanımların məktəbə cəlb edilməsində müəyyən rolu və xidmətləri olmuş bir sıra tanınmış qadın pedaqoqların, o cümlədən Nigar xanım Vəlibəyova, Mina xanım Aslanova, Məryəm xanım Sulkeviç, Gülbahar xanım Axriyeva, Mələykə xanım Hacıbəyova (Terequlova), Rəhilə xanım Hacıbababəyova (Terequlova), Zəhra xanım Ağayeva, Səhra xanım Zeynalova-Rzabəyova, və digər qadın pedaqoqların həyat və fəaliyyətləri təəssüflər olsun ki, indiyə qədər kifayət qədər araşdırılmayıb, ensiklopediyalarda və digər kütləvi nəşrlərdə dərc edilərək geniş oxucu kütləsinə çatdırılmayıb.**

Bu qüsuru aradan qaldırmaq üçün müəyyən işlərin görülməsi vacibdir. Belə ki, Azərbaycanın pedaqoji və təhsil tarixində rolu və xidmətləri olan həmin pedaqoqların pedaqoji fəaliyyəti haqqında dəyərli məlumatlar Respublikamızın Dövlət Arxivlərinin müxtəlif fondlarından aşkar edilərək həmin sənədlər əsasında elmi-publisistik məqalələr hazırlanıb və bir sıra kütləvi informasiya vasitələrində dərc edilərək cəmiyyətimizə çatdırılıb. İndi isə cəmiyyətimizə indiyə qədər tanıdılmamış digər qadın-pedaqoq - Səhra xanım Zeynalovanın pedaqoji fəaliyyəti haqqında hazırlanan bu məqaləni hörmətli oxucularımızın diqqətinə çatdırıram. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin 309 saylı "Bakı Dağıstan xalq məktəblərinin rəhbərliyi" və 312 saylı Bakı quberniyasının müsəlman əhalisi arasında savadın yayılması üzrə "Nəşr - Maarif" cəmiyyəti adlı fondlarında Balaxanı qadın ibtidai məktəbinin müəllimi, az sonra isə müdiri işləmiş Səhra xanım Zeynalovanın şəxsi işləri qorunub saxlanılır. Düşünürəm ki, Azərbaycanın təhsil tarixində, məktəb işinin inkişafında yeri və rolu olmuş müəllim və pedaqoqların fəaliyyəti mümkün qədər araşdırılmalı, öyrənilməli və cəmiyyətə çatdırılmalıdır ki, onların respublikamızda təhsilin və məktəb işinin inkişafı yolundakı zəhməti və xidmətləri unudulmasın.

Bakı quberniyasının müsəlman əhalisi arasında savadın yayılması üzrə "Nəşr-Maarif" cəmiyyəti adlı fondda ibtidai məktəbdə rus dili müəlliməsi Səhra xanım Zeynalovanın 1915-ci il sentyabrın 18-də "Nəşr-Maarif" Cəmiyyətinə göndərdiyi aşağıdakı məktubu qorunub saxlanılır. Səhra xanım həmin məktubda qeyd edirdi: "Cəmiyyətin tabeliyində olan Balaxanı məktəbində müdir yerinin vakant olduğunu eşitmişəm. Əgər bu, həqiqətən də belədirsə, xahiş edirəm ki, mənə həmin məktəbin müdiri vəzifəsini verəsiniz. Bununla yanaşı sizə 2585 saylı şəhadətnaməni də təqdim edirəm".

Səhra xanımın yazdığı həmin məktub yuxarıda adıçəkilən Cəmiyyətin İdarə Heyətinə çatdıqdan sonra 1915-ci il sentyabrın 30-da "Nəşr-Maarif" Cəmiyyətinin sədr müavini Ağa Aşurov Səhra xanım İsmayıl qızı Zeynalova haqqında şəxsi məlumatları Bakı Quberniyası və Dağıstan vilayəti üzrə 2-rayonun müfəttişi S.M.Qəniyevə göndərərək bildirirdi ki, "Nəşr-Maarif" Cəmiyyətinin İdarə Heyəti tərəfindən Balaxanı ibtidai qadın məktəbinə müdir Səhra xanım Zeynalova seçilib. Səhra xanım azərbaycanlıdır, müsəlmandır, Bakı Mariyin qadın gimnaziyasının 4-cü sinfini bitirərək gimnaziyanı başa vurub. İbtidai məktəb müəllimi dərəcəsinə malikdir. Əvvəlki xidmət yeri - Aleksandrinski rus-müsəlman qadın məktəbində təcrübə keçib. İbtidai məktəbin müəlliməsi adına malik olduğunu təsdiq edən şəhadətnaməni də sənədlərə əlavə edirəm.

Bu haqda sizə məlumat verərək məsələyə dair sizin tərəfdən hər hansı bir etirazın olub-olmadığını bildirməyinizi xahiş edirəm. Oni deyək ki, Səhra xanımın arxivdə saxlanılan şəxsi işlərində onun şəhadətnaməsi aşkar edilməyib. Arxiv sənədlərində Səhra xanım Zeynalovanın 20489 saylı etibarlılıq şəhadətnaməsinə də malik olduğu qeyd edilib.

Bakı Quberniyası və Dağıstan vilayəti üzrə 2-rayonun müfəttişi S.M.Qəniyev 1915-ci il oktyabrın 10-da Bakı-Dağıstan xalq məktəblərinin rəhbəri A.S.Tixorjevskiyə müraciət edərək Səhra xanım Zeynalovanın 1 oktyabr 1915-ci ildən etibarən "Nəşr-Maarif" Cəmiyyətinin Balaxanı qadın məktəbinə nəzarətçi müəllimə vəzifəsinə təyin edilməsinə onun tərəfindən icazənin verilməsini xahiş edib. Müsəlmanlar arasında savadın yayılması üzrə "Nəşr-Maarif" Bakı Cəmiyyətinin İdarə Heyəti adından Cəmiyyətin sədr müavini Ağa Aşurovun imzası ilə 17 oktyabr 1915-ci il tarixdə müəllimə Səhra xanım Zeynalovaya 506 saylı məktub göndərilib. Həmin məktubda qeyd edilirdi: " Hörmətli cənab, sizə bildirirəm ki, siz 15 oktyabr 1915-ci il tarixdən etibarən ayda 660 rubl, məktəbi idarə etməyinə görə ildə 50 rubl olmaqla "Nəşr-Maarif" Cəmiyyətinin Balaxanı qadın real məktəbinə nəzarətçi-müəllimə təyin edilirsiniz, həmçinin siz aldığınız məvacibin 6 faiz tutulmaqla həmin tarixdən etibarən müəllim və müəllimələrin pensiya kassasının iştirakçısı kimi siyahıya daxil edilirsiniz. Bunları bildirərək sizdən xahiş edirəm ki, Cəmiyyətin yuxarıda adıçəkilən məktəbinin əmlakı və işini qəbul etmək üçün xidmət yerinə gedib siyahını imzalayaraq "Nəşr-Maarif" Cəmiyyətinin İdarə Heyətinə göndərəsiniz".

Səhra xanım 1917-ci il iyunun 8-də Bakı Quberniyası və Dağıstan Vilayətinin Xalq Məktəblərinin direktoruna ərizə ilə müraciət edərək bağ evinə köçməsi ilə əlaqədar olaraq sentyabr ayının 1-dək olan müddətlərdə - iyun,iyul, avqust ayları üçün əlavələrin ödənilməsinin saxlanılmasını xahiş edib.

Xatırlayaq ki, 1903-cü ildə H.Z.Tağıyevin Qafqaz Səhmdar Cəmiyyətinin lifli cisimlərin emalı fabrikinin nəzdində məktəb yaradılıb. Həmin məktəbin direktoru 1918-ci il noyabrın 10-da Bakı quberniyasının xalq məktəbləri müfəttişi S.M. Qəniyevə 111 saylı məktub göndərərək bildirirdi ki, fabrika məktəbinin müəllimə şöbəsi üçün müəllimə Səhra xanım Zeynalovanı noyabrın 1-dən etibarən işə qəbul edib və o, artıq dərslərə başlayıb.

Bakı quberniyası xalq məktəblərinin direktoru 19 noyabr 1918-ci ildə Balaxanı qadın ibtidai məktəbin müəlliməsi Səhra xanım Zeynalovaya məktub göndərərək onun 1 noyabr 1918-ci ildən etibarən fabrika nəzdindəki ibtidai məktəbə müəllim vəzifəsinə keçirildiyini bildirib. Bakı Quberniyası xalq məktəblərinin direktoru Tağıyev fabrikinin direktoruna 1918-ci il noyabrın 17-də məktub göndərərək Balaxanı qadın ibtidai məktəbinin müəlliməsi Səhra Zeynalovanın 1 noyabr 1918-ci il tarixdən etibarən Tağıyev fabrikinin nəzdindəki məktəbə keçirildiyi haqqında məlumat verir.

Bakıda 1917-ci ilin martından - 1918-ci il iyulun 31-dək hakimiyyəti zəbt edən Bakı sovetinin 25 aprel 1918-ci il tarixli qərarı ilə Bakı Soveti Xalq Komissarlığı tərkibində Xalq Maarif Komissarlığı yaradılıb. Azərbaycanda məktəb işinin inkişafı, məktəb şəbəkəsinin genişləndirilməsi və s. məsələlər Xalq Maarif Komissarlığının qarşısında duran məsələlərdən biri sayılırdı. Bakıda Aşağı Təzəpir küçəsi ev 22-də yaşayan Balaxanı qadın ibtidai məktəbinin müəlliməsi Səhra Zeynalovanın 27 may 1918-ci ildə Xalq Maarif Komissarlığına yazdığı ərizə qorunub saxlanılır. Səhra xanım həmin ərizədə qeyd edirdi: "1916-cı ildən etibarən Balaxanı qadın məktəbindəyəm. Komissarlığın əmrinə görə, bildirirəm ki, bundan sonra da mən bu məktəbin müəlliməsi olmaq istəyirəm və xahiş edirəm ki, məni adıçəkilən məktəbin müəlliməsi vəzifəsinə qəbul edəsiniz. Mənim bütün sənədlərim Xalq Məktəbləri direksiyasındadır. Bu ildə mən heç bir yerə getməmişəm və getməyərək bu şəhərdə qalacağam. Əmrə uyğun olaraq məndən partiyadan vəsiqə tələb edilir ki, bunu da mən təqdim edə bilməyəcəyəm, çünki heç bir partiyada işləməmişəm".



1918-ci ildə Bakı Soveti Xalq Komissarlığı tərkibindəki Xalq Maarif Komissarlığına Rusiya Sovetlər Respublikası tərəfindən göndərilən 17 iyul 1918-ci il tarixli 2856 saylı məktubda Bakı rustatar qadın məktəbinin müəlliməsi Səhra Zeynalovanın ibtidai məktəbin müəlliməsi olduğunu təsdiq edən 2585 saylı şəhadətnamənin göndərildiyi bildirilirdi.

Arxiv sənədlərindəki məlumatlara əsaslanaraq qeyd edirəm ki, Səhra Zeynalova çox guman ki, 1919-cu ildə Həşim bəy Rzabəyovla ailə həyatı qurub. Çünki Səhra xanımın fəaliyyətini əks etdirən 1918-ci ilə qədər olan sənədlərdə onun soyadı Zeynalova, sonrakı 1919-1920-ci illərə dair sənədlərdə isə Zeynalova-Rzabəyova kimi qeyd edilir.

Səhra xanım Zeynalova-Rzabəyovanın 1920-ci il yanvarın 21-də Xalq Maarif Komissarlığına unvanladığı məktubda xahiş edirdi ki, ona Komissarlığın tabeliyindəki ibtidai məktəbdə 4 illik xidməti haqqında vəsiqə verilsin. O, həmçinin qeyd edirdi: "Sizin tabeliyinizdə olan ibtidai məktəbdə dördillik xidmətim haqqında vəsiqə verməyinizi xahiş edirəm. Bununla yanaşı, məruzə edirəm ki, mən 1916-cı ildə Balaxanı qadın məktəbinə müdir təyin edilmişəm, 1918-ci ildə isə Tağıyevin fabriki nəzdindəki məktəbə keçirilmişəm və xəstəliyimə görə 1919-cu il noyabrın 1-də işdən azad olunmuşam. Vəsiqəni öz həyat yoldaşım Həşim bəy Rzabəyovun götürməsinə etibar edirəm".

Azərbaycan Respublikasının təhsil tarixində rolu və izi qalan bütün müəllim və pedaqoqlar, o cümlədən Səhra xanım Zeynalova-Rzabəyovanın da xatirəsi bu gün xalqımız tərəfindən böyük hörmət və ehtiramla yad edilir və onun pedaqoji fəaliyyəti öyrənilir və təbliğ edilir. Həmin pedaqoqların Azərbaycanda təhsilin və məktəb işinin geniş yayılmasındakı rolu danılmazdır.

**Rafiq Səfərov,**
**Milli Arxiv İdarəsinin Baş məsləhətçisi**



# Azər Paşa Nemətovu Hacı İsmayılov əvəz edəcək

**Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə heyətinin iclası keçirilib.**

Bu barədə İttifaqın feysbuk səhifəsində məlumat paylaşılıb.

Bildirilib ki, iclasda Xalq artisti Azər Paşa Nemətovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sənətkarın şəxsiyyətindən, sənətindən, Azərbaycan mədəniyyətindəki, o cümlədən teatr sənətindəki əvəzolunmaz yerindən danışılıb. Sonra sədrin vəzifə səlahiyyətlərinin icrası barədə məsələ müzakirə edilib.

İdarə heyəti üzvlərinin yekdil qərarı ilə Azərbaycan Teatr Xadimləri İttifaqının növbəti Konfransına qədər İttifaq sədrinin səlahiyyətləri sədr müavini Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" Ordenli Hacı Məcid oğlu İsmayılova verildi.

# Elxan Qasımov aktrisaların dodaq şişirtmələrini lağa qoydu



**"Bəziləri gözləmirlər. Onları pisləmirəm. Cırıq şalvarlılar, saqqalı başqa cür olanlar istəmir bunu. Onlar xaricə üz tuturlar".**

Bu sözləri Əməkdar artist Elxan Qasımov "Səhər mərkəzi" verilişində deyib. Aktyor rejissoru olduğu "Biz qayıdacağıq" filmindən danışıb. O bildirib ki, ekran işinin davamını çəkmək arzusundadır, amma bir çoxları buna istəmir.

"İndi çəkilsə, adı "Biz qayıtmışıq" olacaq" deyə, E.Qasımov əlavə edib.

Aktyor daha sonra dublyajda çalışan aktrisaları lağa qoyub. O bildirib ki, dodaqlarını yekəltdikləri üçün danışmaqda çətinlik çəkirlər:

"İndi tərcümə etmək olmur. Bütün aktrisalarımız dodaqlarını qabağa verib danışırlar. Ona görə də səsləndirmə olmur".

**Elanlar**

Dövlət sərhəd xidmətinin hərbi qulluqçusu Bəkirov Ülvi Zakir oğluna məxsus 0007181 saylı hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Şabran rayonu, Əmirxanlı kənd sakini Təhməzov Nozləddin Məmmədşah oğlunun adına 99 RJ 831 dövlət nişanlı Niva avtomaşınının texniki pasportu itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.I.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA40060380300025AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 943


**Təkrar hərracın keçirilməsinə dair elan**

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının 15/02/2023 №-li, 15.02.2023-cü tarixli sifarişinə əsasən 1 ədəd "LEXUS GS250" markalı, 99-AK-806 dövlət qeydiyyat nişanlı minik avtomibilinə (Sedan tipli, 2014-cü il buraxılışlı, ağ rəngli, BAN JTHBF1BL005011005, mühərrik №0998566)dair 13 aprel 2023-ci il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş təkrarhərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil ilkin satış qiymətindən 5% aşağı qiymətə yəni35.150 (otuz beş min yüz əlli) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac açıq auksion qaydasında keçiriləmklə 25 aprel2023-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu Kazım Kazımzadə 123 ünvanında keçiriləcəkdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 1.757,5 (bir min yeddi yüz əlli yeddi manat əlli qəpik) manat məbləğində beh ödənilməlidir.Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin hesablaşma hesabına ödənilməlidir.

Hesab №: AZ02HAJCNCRAZN10010250157001
VÖEN:1302724701
Bank adı: ASC "Xalq Bank" Baş filialı
Kodu:501026

Eyni zamanda qeyd olunur ki, 500 (beş yüz) manat məbləğində iştirak haqqı hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

**Əlavə telefonları: +99450) 210-66-47; 077-712-07-77 ; 055-213-51-35**

# Küçədə qorxu yoxdur

## Azərbaycan vətəndaşlarının 76 faizi özünü ictimai yerlərdə tam təhlükəsiz hiss edir

**Azərbaycan vətəndaşlarının 76,0%-i özünü ictimai yerlərdə tam təhlükəsiz, 17,7%-i isə əsasən təhlükəsiz hiss edir.**

**Bu, Sosial Tədqiqatlar Mərkəzinin (STM) vətəndaşların şəxsi təhlükəsizliyi ilə bağlı keçirdiyi sorğunun nəticəsində məlum olub.**



Təhlillərə əsasən, ictimai yerlərdə təhlükəsizlik məsələsinə respondentlərin həm təhsil səviyyələri, həm də müxtəlif yaş qrupları üzrə münasibəti yüksəkdir.

Sözügedən istiqamətdə nəticələrin respondentlərin yaşayış məntəqəsi üzrə təhlili şəhər, qəsəbə və kənd sakinlərinin rəylərinin fərqlənmədiyini göstərib.

Sorğu iştirakçılarının 3,7%-i özünü ictimai yerlərdə əsasən təhlükədə, 2,1%-i tam təhlükədə hiss etdiyini bildirib. Bu suala cavab verməkdə çətinlik çəkənlər 0,5% olub.

Qeyd edək ki, sorğular aprelin 1-dən 6-dək keçirilib və prosesdə 18 yaşından yuxarı 384 respondent iştirak edib. Könüllü iştirak və anonimlik prinsipləri təmin olunub.

Sorğular telefonla müsahibə formasında keçirilib və 12 iqtisadi rayonu əhatə edib. Bu məqsədlə müvafiq məlumat bazasından sözügedən iqtisadi və inzibati rayonlara (şəhərlərə) aid stasionar telefon nömrələri təsadüfi qaydada seçilərək zənglər edilib. Sorğunun seçmə çərçivəsi ölkə üzrə əhali sayının paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Nəticələrin əminlik intervalı 95%, xəta payı 5%-ə bərabərdir.

ŞƏRQ
14 aprel 2023-cü il № 64 (5825) (cümə)




## Alimlər sirri ortaya çıxarıb

“Everestdən beş dəfə hündür dağlar var”

**Yer planetinin cənub yarımkürəsinin geoloji xəritəsi üzərində yeni çalışmalar aparan alimlər indiyədək naməlum olan sirri ortaya çıxarıb.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, alimlər xəritəni araşdırarkən yer nüvəsinin ətrafını sarmış qədim okean səthi aşkar edib. Bu səth ərimiş metal nüvənin üzərində qayalıq mantodan ibarətdir və 2.900 kilometr dərinlikdə yerləşir. ABŞ-nin Alabama Universitetindən geoloq Samanta Hansen ”apardığımız seysmik araşdrımalar planetin daxili quruluşunu mümkün olduğu qədər görməyimizə kömək edir, nəticədə Yerin quruluşunun təxmin etdiyimizdən daha çox qarma-qarışıq olduğunu görə bilirik”, söyləyib. Cənub yarımkürədə zəlzələlərin yaratdığı seysmik dalğalardan Yerin nüvə-mantiya sərhəddi boyunca quruluşunun müəyyən olunmasında istifadə edilib. Hansen və həmkarları zəlzələlərin yaratdığı dalğaların xəritəsini çıxarmaq üçün 3 il ərzində Antarkdtidada buzla örtülü 15 müşahidə stansiyasında çalışıb. Bu dalğaların hərəkəti və sıçrama şəkli Yer daxilindəki materiyaların əlaqəsini ortaya çıxarır. Aparılan araşdırmalar Yer planetinin nüvəsinin bəzi yerlərində Everest dağından 5 dəfə hündür dağlar olduğunu müəyyən edib. Araşdırmaçılar qədim okean səthinin Yerin nüvəsini əhatə etdiyi mülahizəsini də irəli sürür, lakin bunun təsdiqini tapması üçün hələ çox tədqiqatlar aparılmalıdır. Seysmik araşdırmalar bu sirri aça bilər.

**Məlahət**

## Bill Qeyts keçmişdən özünə yazdığı məktubu tapdı



**”Microsoft”un həmtəsisçisi Bill Qeyts 2008-ci ildə özünə göndərdiyi məktubu saytında dərc edib.**

Oxu.az xəbər verir ki, Qeytsin sözlərinə görə, bu məktubu ”Weather for Dummies” kitabı barədə düşünərkən tapıb. Milyarder köhnə elektron məktubların arxivinə nəzər saldığı zaman məlum olub ki, o, 14 il əvvəl, 2008-ci ilin payızında artıq bu kitabdan bəhs edib.

Köhnə bir qeyddə keçmişdən olan Qeyts özü üçün oxunması zəruri olan 25 elmi kitabın siyahısını yazıb.

Qeyts bununla bağlı məlumatları öz bloqunun oxucuları ilə bölüşüb və bildirib ki, vaxtında siyahıda sadalanan bütün kitabları oxuyub. O qeyd edib ki, hətta bu gün də oradan əldə etdiyi biliklərə arxalanır. Milyarder vurğulayıb ki, o indi bədii ədəbiyyata həsr etməyə özünə asudə vaxt ayırır və detektiv hekayələri oxumağı da xoşlayır.

## Məşhurlar boşanır

Demet Özdemir öz villasına köçüb



**Bir müddətdir ayrılıqları ilə bağlı şayiələr yayılan Demet Özdemir və Oğuzhan Koç boşanır.**

**Onlar evliliklərini davam etdirməyə çalışsalar da, bu, mümkün olmayıb. Demet Oğuzhanla yaşadığı evi tərk etdikdən sonra geri qayıdıb, lakin aralarındakı problemə görə, yenidən ayrılıb.**

**Bu dəfə o, əşyalarını da götürüb evlənmədən əvvəl yaşadığı villasına köçüb.**

***Qeyd edək ki, onlar ötən ilin avqustunda evləniblər.***

## "Serenayı yox, Aleyna Tilkini öpmək istəyərəm"



**Türkiyəli şoumen Mehmet Əli Ərbil yenidən açıqlamaları ilə gündəmə gəlib.**

**Axşam.az xəbər verir ki, şoumen seriallardakı öpüşmə səhnələrinə münasibət bildirib.**

**”Artıq Serenayı (red.- aktrisa Serenay Sarıkaya) öpmərəm. Onu ələ keçiriblər. Əgər bir klipdə öpüşmə səhnəsi gələrsə, Aleyna Tilki deyərəm” deyə, Ərbil söyləyib.**

## Qısa ətəyin yaradıcısı öldü



**Britaniyalı məşhur modelyer Meri Kuant vəfat edib.**

**Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, o, bu gün səhər saatlarında İngiltərənin Surrey qraflığındakı evində 93 yaşında dünyasını dəyişib.**

***Qeyd edək ki, Kuant qısa ətəyin yaradıcısı kimi tanınırdı. Modelyer 2015-ci ildə Britaniya modasına göstərdiyi xidmətlərə görə ”Dame” mükafatını qazanıb.***

## İlon Mask tvitteri satmaq istəyir

O, yeni şirkəti idarə etməyin asan olmadığını bildirib



**”Tesla” və ”SpaceX” şirkətlərinin sahibi, 2022-ci ildən tvitterə rəhbərlik edən amerikalı milyarder İlon Mask uyğun alıcı tapacağı təqdirdə sosial şəbəkəni satmağa hazır olduğunu açıqlayıb. Bu barədə Mask BBC-yə müsahibəsində danışıb. O, yeni şirkəti idarə etməyin asan olmadığını və bunun ağrılı proses olduğunu bildirib. Milyarder həmçinin qeyd edib ki, hazırda ona tvitter üçün 44 milyard dollar təklif edilsə, onu dərhal satmayacaq.**

***Qeyd edək ki, İlon Mask sosial şəbəkəni ötən il 44 milyard dollara almışdı.***



# Təbii fəlakət "evləri" inşa edilir

İndiyədək 550 evin tikintisi yekunlaşaraq sakinlərə təhvil verilib





**Təbii fəlakət bölgələrində yeni evlərin tikintisini 1 ildə tamamlayacağına söz verən Türkiyənin Ətraf mühit, şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi Manavqatda yeni tikilmiş kənd evlərini təqdim edib. Bu barədə ”Milliyet.com.tr” xəbər paylaşıb. Məlumdur ki, Manavqatda ötən illərdə güclü meşə yanğınları baş vermişdi.**

2021-ci ilin 28 iyulunda baş verən yanğınlarda ətraf mühit ciddi zərərə uğrayıb. Yerli sakinlər təhlükəsiz bölgələrə təxliyə edilib. Hökumət bölgədə yerli memarlıq üslubunda evlərin tikintisini qərara alıb. 1 il ərzində 148 ədəd, birmərtəbəli, 762 ədəd ikimərtəbəli, ümumilikdə 910 kənd evinin tikintisinə başlanıb, indiyədək 550 evin tikintisi yekunlaşaraq sakinlərə təhvil verilib. Nazirlik may ayınadək bütün tikintilərin başa çatdırılacağını bildirib.

Bundan başqa 2020 və 2022-ci illərdə təbii fəlakətlərdən zərər görmüş Antalya, Muğla, İzmir, Kastamonu, Sinop, Rize, Artvin, Giresun, Elazığ, Malatyada ehtiyac duyulan sayda yaşayış evləri, həmçinin inzibati binalar, kənd sakinlərinin dağıntılara məruz qalmış ferma və tövlələri də yenidən inşa edilib. Nazir çıxışında bildirib ki, zəlzələ bölgələrində də tikintilərə başlanır. Lakin burada vəziyyət bir qədər mürəkkəbdir. Hər bölgənin coğrafi xüsusiyyətləri, demoqrafik quruluşu, ənənələri fərqli olduğundan eyni inşaat üsulunu bütün ərazilərə şamil etmək mümkün deyil. Hər bölgənin yerli xüsusiyyətlərinin nəzərə alınması vacibdir. Zəlzələdən zərər çəkmiş 4 bölgə 4 fərqli memara həvalə edilib. Tikinti sürətlə aparılıb. Birmərtəbəli evlər bu Ramazan bayramında sakinlərə təhvil veriləcək. İnşaat işləri sonra mərhələ-mərhələ tamamlanacaq.

**Məlahət**



## Uşaqlıq illərinə aid olan əşyaları qoxulamaq

Beynin yaddaş mərkəzlərinin blokunu açmağa kömək edir

**Əgər deyəcəyiniz sözü yadınızdan çıxarırsızsa, bu yaddaşda zəifləmənin əlamətidir və buna qarşı hərəkətə keçmək lazımdır. ”Medicina” xəbər verir ki, bunun üçün davamlı və sadə hərəkətlər var.**

Birinci qayda - danışmaqdır. Hərəkətlərinizi səsləndirməyə çalışın. Bir yerə getməzdən əvvəl istiqaməti və məqsədi yüksək səslə söyləyin. Məsələn: ”Telefonumu götürmək üçün yataq otağına gedirəm”. Bu, düşüncələrinizi bədəninizə uyğunlaşdırır və qısamüddətli yaddaşı yaxşılaşdırır.

### İkinci qayda - qoxudur

Britaniya alimləri deyirlər ki, uşaqlıq illərinə aid olan əşyaları iyləmək beynin yaddaş mərkəzlərinin blokunu açmağa kömək edir. Bu, fotoşəkillərə baxmaqdan daha səmərəlidir. Resept sadədir: lazımi əşyanı götürün, gözlərinizi bağlayın və qoxulayın.

### Üçüncü qayda - işığı tapın

Miçiqan Dövlət Universitetində aparılan təcrübə zamanı işığın beynin hipokampusunu stimullaşdırdığını və bunun da zehni qabiliyyəti tez bir zamanda yaxşılaşdırdığını müəyyən ediblər. Bunun üçün həm təbii (günəş), həm də süni (çıraq) işıqlandırma uyğun gəlir.

### Dördüncü qayda - topu əlinizdə saxlamaqla məşq edin.

Xatırlamaq istədiyiniz bir şeyi oxuduğunuz zaman sağ əlinizdə kiçik bir top tutun. Araşdırmalar göstərir ki, sağ əli sıxmaq beynin qısamüddətli yaddaş mərkəzi olan sol yarımkürəsini aktivləşdirir. Lazım olan məlumatları daha sonra xatırlamaq üçün sol əlinizi sıxın. Bu, beynin sağ yarımkürəsini işə salacaq və öyrəndiklərinizi xatırlamağınız lazım olduğuna dair bir siqnal verəcəkdir.

### Top məşqləri

Barmaqlarınızı bir yerdə tutaraq, masaj topunu ovuclarınız arasında yuxarı və aşağı yuvarlayın.

Topu ovuclarınız arasında dairəvi hərəkətlə yuvarlayın.

Barmaq ucları ilə topu götürün. Barmaqlarınızla sürüşdürün, onu sizdən uzaqlaşdırın.

Topu hər iki əlin barmaqlarının ucu ilə tutun və 4-6 dəfə sıxın.

Topu iki əlinizlə götürün, 20-30 sm hündürlüyə atın və tutun. Bir neçə dəfə təkrarlayın.

Topu ovuclarınızla tutun, barmaqlarınızı topun üzərində kilidə sıxın, dirsəklərinizi yanlara açın. Topa 4-6 dəfə basın.

## Su ilə arıqlamaq mümkündür

Bu qənaətə yapon alimləri gəlib



**Su bədəndən toksinləri çıxarır, maddələr mübadiləsini və bağırsaqların fəaliyyətini aktivləşdirir. Bütün bunlar yağ yandırma prosesini başladır. Adi içməli suyun müntəzəm və düzgün istifadəsi arıqlamağa kömək edəcək. Bu qənaətə yapon alimləri gəlib.**

Lent.az xəbər verir ki, mütəxəssislərin fikrincə, yuxudan oyandıqdan sonra qəhvə və ya çay əvəzinə otaq temperaturunda bir stəkan su içmək lazımdır. Maye qəbul etdikdən dərhal sonra dişlərinizi fırçalamalı, 45 dəqiqədən sonra səhər yeməyini yeməlisiniz.

Alimlər deyirlər ki, su içmək aclıq hissini azaldır. Səhər yeməyindən sonra iki saat ərzində heç nə yeməmək tövsiyə olunur.

Ac qarına su bədəndən bir gecədə yığılan toksinləri çıxarır, maddələr mübadiləsini və bağırsaqların fəaliyyətini aktivləşdirir, mədə yanmasının da qarşısını alır.

Beləliklə, səhərlər bir stəkan sudan müntəzəm istifadə və gün ərzində balanslı bir pəhriz ilə artıq çəki tədricən yox olacaq. Bir ay ərzində, elm adamlarının fikrincə, qan şəkəri və qan təzyiqi normallaşa bilər.

## Diqqətli olun!

Çox əsnəmək insult xəbərdarlığı ola bilər



**Bəzən çox əsnəmək insult xəbərdarlığı ola bilər.**

”Medicina” xəbər verir ki, əsnəmək istəyi beyin qan dövranının pozulması səbəbindən yaranır.

Həkim - terapevt Nadejda Çernışova bildirib ki, qəfil əsnəmə müxtəlif şəraitdə və patologiyalarda baş verə bilər. İlk növbədə, həkim qeyd etdi ki, bu kompensasiya mexanizmi beyin oksigen çatışmazlığını hiss etdikdə işə düşür.

**Əsnəməyin digər səbəbləri tamamilə təhlükəsizdir:**

-Havasız otaqda uzun müddət qalmaq.

-Güclü zehni stress səbəbindən həddindən artıq iş.

-Yuxunun olmaması.

Bəzən əsnəmə insult xəbərçisi kimi beyin qan dövranının pozulması zamanı baş verir.

Eyni zamanda insultun inkişafı ilə yalnız əsnəmə baş vermir, ancaq əzalarda kəskin və şiddətli zəiflik, üz asimmetriyası, nitq pozğunluğu, şiddətli baş ağrısı şəklində bir sıra digər əlamətlər görünür, başgicəllənmə və orientasiya pozğunluğu yaranır.

Həkim vurğulayıb ki, insult zamanı xəsarət alan şəxsə tez bir zamanda yardım göstərilməlidir. Bunu nəzərə alaraq, əsnəmək kimi zərərsiz görünsələr belə, hər hansı bir simptomun görünüşünə göz yummamaq daha yaxşıdır. Digər əlamətlərin göründüyünü izləmək daha yaxşıdır.